AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**SEVİNC MƏMMƏD qızı SEYİDOVA**

# ERMƏNİSTAN–AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN TƏNZİMLƏNMƏSİNDƏ BEYNƏLXALQ TƏŞKİLATLARIN İŞTİRAKI (1991- 2005-ci illər)

**İxtisas - 5503.02 - Vətən tarixi və**
**5507.01 – Beynəlxalq münasibətlər tarixi**

**Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Türk və Şərqi Avropa xalqları tarixi və tarixin tədrisi metodikası kafedrasında yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:**
tarix üzrə elmlər doktoru, professor **O.B.SULTANOV**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru, professor **M.H.SEYİDBƏYLİ**
tarix üzrə elmlər doktoru, professor **M.S.HƏSƏNOV**
tarix üzrə elmlər doktoru **N.R.MƏMMƏDOV**

**Aparıcı müəssisə**: Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrası

Dissertasiyanın müdafiəsi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 03 mart 2017-ci il tarixli 36 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə dokroru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən B/D.02.161 saylı Dissertasiya Şurasının "_______" ___________2017-ci il tarixli iclasında saat "____"-də keçiriləcəkdir.

**Ünvan :** AZ-1148, Bakı şəhəri, akad. Z.Xəlilov küçəsi 23

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "______" ___________2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının Elmi katibi**
tarix üzrə elmlər doktoru, professor **S.Y.SÜLEYMANOVA**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** SSRİ-nin dağılması prosesində sovet rəhbərliyinin milli münasibətlər sahəsində tutduğu yanlış mövqe imperiya daxilində müəyyən millətçi qüvvələrin ərazi iddiaları ilə bağlı cəhdlərinin yenidən baş qaldırmasına şərait yaratdı. Moskva tərəfindən dəstəklənən erməni qüvvələri Azərbaycanın Dağlıq Qarabağ bölgəsini ələ keçirtmək üçün öz fəaliyyətlərini genişləndirdilər.

Dağlıq Qarabağ ərazisində yaşayan ermənilər millətlərin öz müqəddəratını təyin etmə hüququnu bəhanə edərək, Azərbaycan dövlətinə tabe olmaqdan imtina etdilər və SSRİ-nin dağılması ərəfəsində müasir dövrün ən kəskin milli münaqişələrindən biri olan Dağlıq Qarabağ problemi yarandı.

Ermənistanın Azərbaycana qarşı təcavüzü şəraitində Azərbaycan Respublikası beynəlxalq təşkilatların vasitəsilə beynəlxalq birliyin diqqətini münaqişə bölgəsinə cəlb etmək, dünya ictimaiyyətində obyektiv rəyin formalaşmasına, problemin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə çalışdığından problemin nizamlanmasında beynəlxalq təşkilatlarla əməkdaşlıq zərurəti yarandı. Ona görə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normalarına uyğun həll olunmasında beynəlxalq təşkilatlar tərəfindən verilən hüquqi təminat beynəlxalq təşkilatlarla əməkdaşlığı Azərbaycan üçün zəruri edir. Azərbaycan Respublikası beynəlxalq təşkilatların vasitəçilik missiyalarından istifadə edərək münaqişənin dinc yolla nizamlanmasına üstünlük verir.

Tədqiq etdiyimiz problemin həllində beynəlxalq təşkilatlarla əməkdaşlıq məsələsi Azərbaycan tarixşünaslığında ayrıca tədqiqat obyektinə çevrilməmişdir. Bu isə mövzunun aktuallığını şərtləndirən amillərdən biridir.

Müstəqillik əldə etdiyi ilk gündən Azərbaycan beynəlxalq təşkilatlara üzv olmağı qarşısına bir məqsəd kimi qoymuşdu. Müstəqil dövlət qurmuş Azərbaycan üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi respublikanın xarici siyasət fəaliyyətinin aparıcı istiqamətlərindən birinə çevrilmişdir.

Dünya dövlətləri ilə müxtəlif sahələrdə geniş əməkdaşlıq münasibətlərinin qurulması da Azərbaycan Respublikasının xarici siyasətinin əsas prioritetlərindən biridir. Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin ortalarından respublikaya ikinci dəfə hakimiyyətə qayıdışından sonra, Azərbaycanın xarici siyasət strategiyası kökündən dəyişdi. Təkcə

1999-cu ilin fevralına qədər Heydər Əliyev 68 dövlətin prezident və hökumət başçıları ilə 485 görüş keçirtmiş və bu görüşlərin hamısında Dağlıq Qarabağ münaqişəsi müzakirə edilmişdi. Heydər Əliyev münaqişə barəsində dəfələrlə BMT-nin Baş Katibi ilə çoxsaylı görüşlərində, ATƏT, NATO, MDB, İKT və digər beynəlxalq təşkilatların zirvə görüşlərində məsələ qaldırmışdı. O, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edirdi.

Beynəlxalq təşkilatlara üzvlük həm də Azərbaycan üçün ona görə vacib idi ki, məhz Azərbaycan beynəlxalq təşkilatlara - BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı (İKT), Müstəqil Dövlətlər Birliyi (MDB) Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) və s. təşkilatlara üzv olaraq fəal xarici siyasət yeridir. Bu təşkilatlar, xüsusilə BMT, ATƏT və NATO yarandığı gündən bu günə qədər bir sıra münaqişələrin tənzimlənməsində yaxından iştirak etmiş və münaqişələrin həllinin dinc vasitələrlə həyata keçirilməsinə üstünlük vermişlər. Azərbaycan məhz Dağllıq Qarabağ probleminin həllində həmin təşkilatların tarixi təcrübəsindən istifadə etməyi məqsədəuyğun hesab edir. Azərbaycan ölkə rəhbərliyinin ardıcıl və sistemli işi nəticəsində beynəlxalq və regional təşkilatların üzvü seçildi.

Tədqiqat prosesində ötən illər ərzində problemin həlli istiqamətində beynəlxalq təşkilatların fəaliyyətinin təhlili onların problemə münasibətlərindəki mövqeyini üzə çıxarmağa imkan verir. Faktların təhlili göstərir ki, beynəlxalq təşkilatlar bu məsələdə ikili standartlar mövqeyindən çıxış edirlər. Bu da Ermənistan-Azərbaycan, Dağliq Qarabağ münaqişəsinin həllini uzadır. Məhz münaqişənin həllinə münasibətdə ikili standartların mövcudluğunu ümummilli lider Heydər Əliyev 2001-ci il fevralın 23-də Azərbaycan Respublikası Milli Məclisinin iclasındakı çıxışında açıq şəkildə qeyd etmiş və bu ikili standartın Ermənistan-Azərbaycan münaqişəsinə tətbiq olunduğunu göstərmişdi.

Münaqişənin ilk günlərindən onu Azərbaycanla Dağlıq Qarabağ arasındakı münaqişə kimi qələmə verirdilər. Hətta, 1992-1993-cü illərdə münaqişəni nizama salmaq üçün BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən sənədlərdə bu, “Dağlıq Qarabağ bölgəsində və onun ətrafında münaqişə” kimi qiymətləndirildi. Hakimiyyətə gəldiyi ilk gündən Heydər Əliyev Ermənistanın təcavüzkar olduğunu və münaqişənin Dağlıq Qarabağla Azərbaycan arasında deyil, məhz Ermənistanla Azərbaycan arasında baş verdiyini sübut etdi. Bununla bağlı Heydər Əliyev deyirdi: “Biz deyirik - bu formulu insanların beyninə mən yeritmişəm- Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi: Amma qalanları nə deyir- Dağlıq

Qarabağ münaqişəsi.Çünki hamısı hesab edir ki, bu münaqişə iki ölkə arasında deyil, Dağlıq Qarabağla Azərbaycan arasındadir. Mən dəfələrlə demişəm, əgər belədirsə, qoy Ermənistan kənara çəkilsin. Biz Dağlıq Qarabağla nə danışıqlar apararıq, nə edə bilərik, öz işimizdir. Biz bunu çox tez müddətdə həll edə bilərik. Ancaq indi Dağlıq Qarabağ, Ermənistan bir ölkədir. Artıq 11 ildir bunlar bir ölkədir. Amma bu həqiqəti heç kəs tanımaq istəmir”[1].

BMT TŞ tərəfindən qəbul edilən qətnamələrin qüsurlu olmasına baxmayaraq, burada “hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal və ləngidilmədən dayandırılması”, “Azərbaycan Respublikasının …. işğal edilmiş rayonlarından qəsbkar qüvvələrin çıxarılması maraqlı tərəflərdən” tələb olunurdu[2] .

Münaqişənin dinc vasitələrlə həll edilməsi üçün 1992-ci ilin martında yaradılan ATƏT-in Minsk Qrupu həmin dövrdə münaqişəni həll etməkdə deyil, onun böyüməsinin qarşısını almaqda maraqlı idi. Üstəlik, Minsk Qrupunun üzvü olan dövlətlərin mövqeyinin vahid olmaması münaqişənin dondurulmuş vəziyyətə düşməsinə səbəb oldu. ATƏT-in Budapeşt (1994, dekabr) və Lissabon (1996, dekabr) sammitlərindən sonra, Ermənistan-Azərbaycan danışıqlarında müəyyən irəliləyişlər hiss edildi.

1997-ci ildə Minsk Qrupunun həmsədrləri tərəfindən hazırlanmış “paket”, “mərhələli həll” planları Azərbaycan tərəfindən qəbul edilsə də, Ermənistan tərəfindən rədd edilmiş, 1998-ci ildə təklif olunmuş “ümumi dövlət” variantı isə Azərbaycanın mənafeyinə zidd olduğu üçün Azərbaycan Respublikası ondan qəti şəkildə imtina etmişdi.

Bu günə qədər təklif olunan bu variantların hamısında ATƏT-in Minsk Qrupu qarşılıqlı güzəşt prinsipini üstün tutmuşdur ki, bu da ATƏT-in işinin zəif tərəflərindən biridir. Çünki həm BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvləri Fransa, Rusiya və ABŞ, həm də, ATƏT-in Minsk Qrupunun həmsədri olan dövlətlərin münaqişəyə münasibətləri həmin ölkələrin strateji və iqtisadi maraqları ilə müəyyənləşdirilir.

Problemin tədqiqi göstərir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı görüşlərin hamısında Azərbaycan tərəfi öz mövqeyini aşağıdakı şəkildə bildirmişdir:

---

[1] Məmmədova H.İ. Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Bakı: Elm, 2009, s.5

[2] http://www.un.org/ru/sc/documents/resolutions/1993.shtm

1. Münaqişə ilk növbədə Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həll edilməlidir ki, bu da beynəlxalq hüququn norma və prinsiplərindən irəli gəlir və onlara uyğundur.

2. Bununla yanaşı, Azərbaycan Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək muxtariyyat statusunu verməyə hazırdır.

3. Azərbaycan ordusu öz ərazisini işğalçılardan azad etməyə hazırdır və buna kifayət qədər gücü vardır. Lakin Azərbaycan tərəfi münaqişənin sülh yolu ilə həll edilməsini istəyir və hesab edir ki, münaqişəni sülh yolu ilə həll etmək üçün imkanlar hələ də tükənməmişdir.

**Tədqiqatın obyekti** Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların iştirakıdır.

**Tədqiqatın predmeti** 1991-2005-ci illərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prosesin, münaqişənin tənzimlənməsi istiqamətində beynəlxalq təşkilatların fəaliyyətinə aid olan problemlərin tədqiqi, həmçinin münaqişənin nizamlanması prosesində beynəlxalq təşkilatların iştirakının araşdırılmasıdır.

**Mövzunun öyrənilmə dərəcəsi.** Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların iştirakı problemi kompleks şəkildə, tam təfərrüatı ilə indiyə qədər tədqiq edilməmişdir. Lakin problemin müəyyən tərəfləri bəzi tədqiqatçılar tərəfindən araşdırılmış, bu məsələyə dair bir sıra monoqrafiyalar, kitablar, məqalələr yazılmışdır. Tədqiqatımızla əlaqədar həmin əsərlər öyrənilmiş və təhlil olunmuşdur.

Münaqişəni başlayan Ermənistan Dağlıq Qarabağın tarixən erməni torpağı olduğunu və ermənilərin buranın aborigen əhalisi olmasını dünya ictimaiyyəti və beynəlxalq təşkilatların qarşısında əsaslandırmağa cəhd göstərdiyi üçün ilk növbədə Dağlıq Qarabağ münaqişəsinin yaranmasının tarixi və ilkin səbəblərinin araşdırılması məqsədəuyğun hesab edilmişdir. Bu məqsədlə ümumiyyətlə, "erməni məsələsi" deyilən bir problemin nə üçün yaranmasının təhlil edilməsi də əhəmiyyətlidir. Çünki Dağlıq Qarabağ məsələsi məhz "erməni məsələsi"nin davamı kimi meydana çıxmışdır. Ermənilərin mənşəyi və tarixi, "erməni məsələsi"nin yaranmasının ilkin səbəbləri, erməni daşnaklarının XIX-XX əsrin əvvəllərində törətdikləri vəhşiliklərlə bağlı bir sıra mənbələr və kitablar bunu bir daha sübut edir.

Azərbaycan tarixçilərindən A.Məmmədli[1], Ə.İsmayılov[2], Salehbəy[3], H.Verdiyeva[4], R.Hüseynzadə[5] əsərlərində ermənilərin mənşəyi və ideologiyası, Qafqaza köçürülməsi, Azərbaycan torpaqlarında öz dövlətlərini yaratmaq planlarının həyata keçirilməsi məsələlərini araşdırmışlar. Bu müəlliflərin tədqiqatlarında əsas diqqət ermənilərin tarixi keçmişi,erməni daşnaklarının XIX əsrin sonu, XX əsrin əvvəllərində törətdikləri cinayətlərə yönəlmişdir. Bununla yanaşı, tədqiq olunan problemlə bağlı müəyyən məlumatlar da öz əksini tapmışdır. Lakin adları çəkilən müəlliflər münaqişənin indiki vəziyyətini işıqlandırmamışlar.

A.Mənsurov[6], A.Xəlilov[7], A.İsgəndərov[8], A.Paşayev[9], S.Onullahi[10], B.Nəcəfov[11] əsərlərində erməni təcavüzünün mahiyyətini, erməni millətçiliyinin azərbaycanlılar üçün fəlakətə çevrilməsini təhlil etmişlər.

Azərbaycan MEA İnsan hüquqları İnstitutunun “Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XXI əsrlər)” adlı müxtəsər xronoloji ensiklopediyasında ermənilərin yalnız Azərbaycan

---

[1] Məmmədli A.A. Ermənilərin gerçək tarixi. Bakı: Elm, 2005, 436 s.

[2] Исмаилов А. А. Тайны и явь армянства. Баку: Müəllim nəşriyyatı, 2006, 266 с.

[3] Салех бей. Армянство. Баку: Элм,1994, 440 с.

[4] Вердиева Х.Ю. Переселенческая политика Российской империи в северном Азербайджане в XIX - начале XX веков: Дис. …докт. ист. наук. Баку, 2002, 345 с.

[5] Вердиева Хаджар, Гусейнзаде Рауф. «Родословная» армян и их миграция на Кавказ с Балкан. Эссэ. Баку: Элм, 2003, 168 с.

[6] Мансуров Ариф. Белые пятна истории и перестройка. Баку: Язычы, 1990, 224 с.

[7] Халилов А.Х. Геноцид против мусульманского населения Закавказья в 1917-1920 годах в исторических источниках: Дис. …канд.ист.наук. Баку, 1996, 224 с.

[8] İsgəndərov A.C Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı (1918-1920). Bakı: Adiloğlu nəşriyyatı, 2006, 396 s.

[9] Paşayev A. Ə. Açılmamış səhifələrin izi ilə. Bakı: Azərbaycan, 2001, 536 s.

[10] Onullahi Seyidağa. Erməni millətçiləri və İran. Bakı: Maarif, 2002, 87 s.

[11] Наджафов Б. И. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX – начале XX века. ч.1, Баку: Шарг-Гарб, 1993,392 с.

ərazisində deyil, müxtəlif ölkələrdə törətdikləri terror aktları qələmə alınmışdır[1].

Erməni məsələsinin yaranması, Osmanlı imperiyasında erməni daşnaklarının törətdikləri cinayətlər Türkiyə tarixşünaslığında xüsusi yer almışdır. Türkiyəli tarixçi alimlərin içərisində xüsusilə Uras Esat[2], Kamuran Gürün[3], Süleyman Koçabaş[4], Gültekin Uralın[5] əsərləri diqqəti cəlb edir. Adları çəkilən bu müəlliflər əsərlərində ermənilərin tarix boyunca yaratdıqları təşkilatlar, onların Türkiyə, Azərbaycan, ümumiyyətlə Qafqazdakı cinayətkar fəaliyyəti, terror yolu ilə Türkiyə və Azərbaycan ərazilərində "Böyük Ermənistan" dövləti yaratmaq cəhdləri haqqında ətraflı məlumat vermiş, beynəlxalq siyasətdə "erməni məsələsi"nin yer tutmasının səbəblərini araşdırmışlar. Lakin onlar öz əsərlərində bilavasitə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs etməmiş və bu münaqişədə beynəlxalq təşkilatların iştirakını təhlil etməmişlər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun tənzimlənməsi prosesində beynəlxalq təşkilatların iştirakı, regionda böyük dövlətlərin siyasi maraqları bir sıra müəlliflərin əsərlərində yer tutmuşdur.

Akademik Ramiz Mehdiyevin "Azərbaycan: Qloballaşma dövrünün tələbləri, keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri"[6] əsərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi geniş təhlil edilmiş və münaqişənin yalnız beynəlxalq hüququn ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı kimi ümdə prinsipləri əsasında ədalətli həllini tapması göstərilmişdir. Müəllif "Gorus-2010: Absurd teatrı mövsümü" adlı əsərində isə ermənilərin tarixi keçmişini

---

[1] Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XXI əsrlər). Müxtəsər xronoloji ensiklopediya. Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Huquqları İnstitutu. Bakı: Elm, 2003, 367 s.

[2] EsatUras. Tarihte Ermeniler və Ermeni meselesi. Ankara: Yeni matbaa, 1950, 785 s.; 2 baskı. İstanbul: Belge yayınları, 1987, 798 s. – genişletilmiş

[3] Кямуран Гюрюн. Армянское досье. Баку: Язычы, 1993, 372 с.

[4] Koçabaş Süleyman. Ermeni meselesi nedir, ne degildir? Kayseri: vatanyayanları, 1985: Vatan yayınları, Beşinci baskı İstanbul 2004, 186 s.

[5] UralGültekin. Tarihin ışığında ermeni dosyası. İstanbul: Kameryayınlar, 1998, 496 s.

[6] Mehdiyev R.Ə. Azərbaycan: Qloballaşma dövrünün tələbləri, keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri. Bakı: XXI-Yeni nəşrlər evi, 2005, 464 s.

mənbələr və faktlar əsasında geniş tədqiq edərək, ona olduqca düzgün qiymət vermişdir.[1]

Ə.Həsənovun “Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996)” əsərində Azərbaycan Respublikasının Avropaya, onun təhlükəsizlik sisteminə inteqrasiyası, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müstəqil Azərbaycan diplomatiyasının əsas məqamları[2],“Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti” adlı kitabında isə Azərbaycanın Avropa dövlətləri, ABŞ-la əlaqələri, ATƏT, NATO kimi beynəlxalq təşkilatlarla əməkdaşlığı[3], müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti kimi məsələlər işıqlandırılmışdır. “Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996)” əsərinin dördüncü fəslində Ə.Həsənov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində beynəlxalq təşkilatların mövqeyi məsələsini də araşdırmışdır[4]. Bu əsərlər Azərbaycanın diplomatiya tarixində dəyərli əsərlərdir.

A.Abbasbəyli və Ə.Həsənovun birgə yazdıqları “Azərbaycan beynəlxalq və regional təşkilatlar sistemində” adlı əsərdə Azərbaycanın BMT, ATƏT, NATO, Avropa Şurası, MDB və digər beynəlxalq və regional təşkilatlarla əməkdaşlığı və bu təşkilatların çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müzakirəsi məsələləri öz əksini tapmışdır[5] .

A.Abbasbəyli və E.Abbasbəylinin 1997-ci ildə nəşr etdikləri «Heydər Əliyev və dünya siyasəti» monoqrafiyasında H.Əliyevin 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışından sonra Azərbaycanın xarici siyasətinin məqsədyönlü şəkil alması, Azərbaycan dövlətinin beynəlxalq əlaqələrinin genişləndirilməsi tədqiq olunmuşdur[6].

---

[1] Mehdiyev R.Ə. Gorus-2010: Absurd teatrı mövsümü. “Respublika” qəz,. Bakı, 2010, 4 noyabr.

[2] Həsənov Ə.M. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı: Elm, 2000, 368 s.

[3] Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 752 s.

[4] Həsənov Ə.M Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı: Azərnəşr, 1998, 315 s.

[5] Аббасбейли А.Н. Гасанов А.М. Азербайджан в системе международных и региональных организаций. Баку: Азернешр, 1999, 256 с.

[6] Аббасбейли А.Н. Аббасбейли Э.А. Гейдар Алиев и мировая политика. Баку: Азернешр, 1997, 302 с.

A.Abbasbəylinin beynəlxalq münasibətlərin proqnozlaşdırılmasına həsr etdiyi "Beynəlxalq münasibətlərin proqnozlaşdırılmasının nəzəri problemləri" adlı kitabında Azərbaycanın BMT, NATO və İKT-də iştirakı işıqlandırılmış, bu təşkilatlarla əməkdaşlığın əsas istiqamət və perspektivləri göstərilmişdir[1].

"Dağlıq Qarabağın ilhaq edilməsi", Ermənistandan azərbaycanlıların didərgin salınması siyasətinin Azərbaycandakı ictimai-siyasi vəziyyətə təsiri, dünyanın qabaqcıl dövlətlərinin münaqişənin başlandığı dövrdə tutduqları mövqe O.Sultanovun "80-cı illərin sonu 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə" əsərində geniş təhlil edilmiş və hadisələrə obyektiv qiymət verilmişdir[2]. "Xocalı soyqırımı əsrin faciəsidir" əsərində isə müəllif Xocalı faciəsinin səbəblərini araşdırmışdır[3]. Lakin müəllif əsərlərində bilavasitə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların iştirakı problemini araşdırmamışdır.

XX əsrin 90-cı illərində Azərbaycanın beynəlxalq vəziyyəti və xarici siyasəti məsələləri, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər P.Səfərovun "90-cı illərdə Azərbaycanın beynəlxalq vəziyyəti və xarici siyasəti" əsərində öz əksini tapmışdır[4]. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq müstəvisində nizamlanmasına Rusiya, İran və Türkiyənin yanaşması problemi isə onun "Azərbaycan Respublikası Rusiya, İran və Türkiyənin geosiyasi maraqlarında" əsərində işıqlandırılmış və təhlil edilmişdir[5]. Bu əsərdə müəllif münaqişə ilə bağlı məsələləri əsasən Rusiya, İran və Türkiyənin geosiyasi maraqları baxımından tədqiq etmişdir.

E.Əhmədovun "Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar" kitabında 1992-1997-ci illərdə Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasına dair beynəlxalq təşkilatların fəaliyyəti

---

[1] Abbasbəyli A.N. Beynəlxalq münasibətlərin proqnozlaşdırılmasının nəzəri problemləri. Bakı: Şirvannəşr, 2006, 348 s.

[2] Sultanov O.B. Xocalı soyqırımı əsrin faciəsidir. Bakı: ADPU-nun nəşri, 1998, 88 s.

[3] Sultanov O.B. 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı:Maarif, 1995, 232 s.

[4] Səfərov P.Ş. 90-cı illərdə Azərbaycanın beynəlxalq vəziyyəti və xarici siyasəti. Bakı: ADPU-nun nəşri, 1999, 117s.

[5] Səfərov P.Ş. Azərbaycan Respublikası Rusiya-İran və Türkiyənin geosiyasi maraqlarında. Bakı: Elm və təhsil, 2011, 264 s.

araşdırılır[1]. Əsərdə yalnız Ermənistan -Azərbaycan münaqişəsində BMT, ATƏT, İKT, Avropa Şurası, Avropa Birliyi kimi beynəlxalq təşkilatların iştirakı təhlil edilmiş, digər beynəlxalq təşkilatların iştirakı isə nəzərdən keşirilməmişdir.

M.Qasımovun "Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər)" əsərində beynəlxalq münasibətlər sistemində Azərbaycanın tutduğu yer, beynəlxalq təşkilatlar çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin müzakirəsi, ABŞ-ın müzakirələrdə tutduğu mövqe[2], "Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri)" adlı monoqrafiyasında isə Azərbaycan müstəqillik qazandıqdan sonra onun xarici siyasətinin prinsipləri, mahiyyəti, məqsəd və vəzifələri, dünya dövlətləri və beynəlxalq təşkilatlarla əməkdaşlığı işıqlandırılmışdır[3]. Həmçinin müasir geopolitikada ABŞ, Rusiya və Cənubi Qafqazın tutduğu yer və dünya dövlətlərinin geopolitik maraqları da müəllifin "Müasir geopolitika" adlı kitabında geniş təhlil edilmişdir[4].

İ.Şükürovun əsərlərində Azərbaycanın dünya dövlətləri ilə diplomatik əlaqələr qurması Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həll edilməsi araşdırılmışdır[5].

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normalarına uyğun olaraq həll edilməsi məsələləri V.Ə.İbayevin əsərlərində nəzərdən keçirilmişdir. V.Ə.İbayevin "Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq hüququn jus codeks prinsipləri prizmasında" kitabında müəllif Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normalarına əsasən nizamlanmasının əhəmiyyətindən bəhs etmişdir[6]. "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində" əsərində də V.Ə.İbayev münaqişənin həlli

---

[1] Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı: Tuna, 1998, 137 s.

[2] Qasımov M.C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı: Gənclik, 1996, 140 s.

[3] Qasımov M.C. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri), Bakı: Mütərcim, 1997, 124 s.

[4] Qasımov M.C. Müasir geopolitika. Bakı: İnam, 1999, 36 s.

[5] Шукюров И. Дипломатия мира. Баку: Азербайджан, 1997, 392 с.; Шукюров И. Армянский сепаратизм как фактор Кавказского кризиса // Возрождение-XXI век, 2000, №7-8, с.127-133

[6] İbayev V.Ə. Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq hüququn jus codeks prinsipləri prizmasında. Bakı: Çənlibel, 1997, 127 s.

ilə bağlı bir sıra hüquqi aspektləri işıqlandırmışdır[1]. Lakin V.Ə.İbayevin əsərlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların iştirakı problemi bilavasitə tədqiqat obyekti olmamışdır.

H.İ.Məmmədovanın "Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi" adlı monoqrafiyasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının xarici siyasətində yeri və rolu tədqiq edilir[2]. Monoqrafiyada Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli problemi Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqaməti kimi göstərilmiş və hərtərəfli təhlil edilmişdir.

V.Quluzadənin "Gələcəyin üfüqləri (Azərbaycan Respublikası xarici siyasəti barədə mülahizələr, müsahibələr, şərhlər)" kitabında Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəbləri, münaqişənin nizamlanması ilə bağlı danışıqlar prosesi, ATƏT-in zirvə toplantıları çox dəqiq əks etdirilmiş və geniş təhlil olunmuşdur. Bilavasitə bu danışıqların gedişində iştirak etmiş V.Quluzadənin müsahibə, şərh və Azərbaycan Respublikasının xarici siyasəti barədə mülahizələrindən ibarət olan bu mənbə mövzunun öyrənilməsində əhəmiyyətlidir[3]. Lakin onun əsərlərində münaqişə tam, sisitemli şəkildə təhlil edilməmişdir.

A.Əzimlinin "Azərbaycan-NATO münasibətləri (1992-2000)" kitabında əsasən Azərbaycan-NATO münasibətləri təhlil edilsə də, NATO-nun Qarabağ münaqişəsinə münasibəti, NATO-nun Qarabağ münaqişəsində oynaya biləcəyi rolu da nəzərdən keçirilmişdir[4]. Lakin müəllif NATO-nun Qarabağ probleminin tənzimlənməsində iştirakını geniş tədqiq etməmişdir.

İ.M.Hüseynovanın Azərbaycanın görkəmli dövlət xadimi, ümummilli lideri Heydər Əliyevə həsr edilmiş "Müstəqil Azərbaycan dövlətinin qurucusu" adlı monoqrafiyasında "Heydər Əliyevin xarici siyasətinin əsas istiqamətləri. Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda mübarizə" adlı VIII fəslində Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra

---

[1] İbayev V.Ə. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində. Bakı: Elm, 2005, 600 s.

[2] Məmmədova H.İ. Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Bakı: Elm, 2009, 359 s.

[3] Quluzadə V. Gələcəyin üfüqləri (Azərbaycan Respublikası xarici siyasəti barədə mülahizələr, müsahibələr, şərhlər). Bakı: Azərbaycan, 1999, 286 s.

[4] Əzimli A. Azərbaycan-NATO münasibətləri (1992-2000). Bakı: Adiloğlu, 2001, 226 s.

Azərbaycanın xarici siyasətində böyük dönüşün əmələ gəlməsi, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində Heydər Əliyevin əvəzsiz fəaliyyəti və bunun nəticəsində beynəlxalq təşkilatların, dünyanın aparıcı dövlətlərinin bu münaqişəyə münasibətinin dəyişməsi məsələləri işıqlandırılmış və geniş şəkildə təhlil edilmişdir[1].

Politoloq R.Musabəyovun məqalələrində əsasən Dağlıq Qarabağ münaqişəsinin nizamlanması yolları nəzərdən keçirilmiş və tədqiq olunmuşdur[2].

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlandığı dövrdən Azərbaycan Respublikası Beynəlxalq Qızıl Xaç Komitəsi ilə əməkdaşlıq etmişdir. Bu əməkdaşlıq, həmçinin Azərbaycandan əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarımızın taleyi E.Səmədovun "Əsir, girov, itkinlər problemi" məqaləsində və A. Həsənoğlunun "Erməni əsirliyində (işgəncələr, ölüm, terror, vandalizm, genosid)" əsərində öz əksini tapmışdır. Lakin müəlliflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində yalnız Beynəlxalq Qızıl Xaç Komitəsinin rolundan bəhs etmişlər.

Dissertasiya mövzusu tədqiq olunarkən bir sıra Azərbaycan alimlərinin beynəlxalq münasibətlərin tarixinə, beynəlxalq təşkilatlara həsr etdikləri əsərlər ətraflı öyrənilmişdir. Bu alimlərin sırasında xüsusilə Y.M.Mahmudov, S.A.Sayadov, H.Rəcəbov, H.Babaoğlu, M.Ə.Baxışov[3] və b. göstərmək olar.

---

[1] Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.

[2] Мусабеков Р. Позиции сторон в Карабахском конфликте сближаются с большим трудом (итоги исследования по методу Дельфы)/Qarabağ Azadlıq Təşkilatı. Qarabağ dünən, bu gün və sabah – III Ümumrespublika elmi - əməli konfransının tezislər toplusu. Bakı: 2004, 296 s., c.210-221; Мусабеков Р. Ресурсы мирного урегулирования/Qarabağ Azadlıq Təşkilatı. Qarabağ dünən, bu gün və sabah. VI elmi-əməli konfransının materialları toplusu. Bakı: Qanun, 2007, 352, c.242-252.

[3] Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1996, 289 s.; Sayadov S. A. XX əsr: Azərbaycan və dünya. Bakı: Elm, 2006, 186 s.; Rəcəbov H. BMT-nin ixtisaslaşmış qurumları və Azərbaycan. Bakı: Azərbaycan, 1997, 80s.; Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi (1918-2003-cü illər). Dərs vəsaiti. Bakı: Şirvannəşr, 2004, 416 s.

Bu məsələnin öyrənilməsi respublikamızda çalışan tarixçi alimlərin diqqət mərkəzində olduğu üçün mövzuyla bağlı bir sıra namizədlik və doktorluq dissertasiyaları müdafiə edilmişdir. Ermənilərin XIX-XX əsrin əvvəllərində Azərbaycana köçürülməsi, burada yaşayan yerli azərbaycanlılara qarşı törətdikləri cinayətlər H.Y.Verdiyeva, A.X.Xəlilov, L.A.Şərifova, M.Əlizadənin dissertasiyalarında[1] öz əksini tapmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, qaçqın problemi, beynəlxalq təşkilatların fəaliyyəti və münaqişəylə bağlı mövqeyi, Azərbaycanın xarici siyasəti və s. kimi məsələlər isə Ə.Həsənov, F.İsmayılov, S.İmanova, X.Hacıyevanın dissertasiyalarında[2] tədqiq olunmuşdur.

Ermənilərin XIX əsrin əvvəllərində Qafqaza çar Rusiyası tərəfindən köçürülməsi, Ermənistan-Azərbaycan münaqişəsinin tarixi kökləri, müasir dövrdə Dağlıq Qarabağ probleminin beynəlxalq təşkilatlarda müzakirəsi məsələləri rus müəllifləri və alimləri tərəfindən də işıqlandırılmışdır. Ermənilərin Qafqaza köçürülməsi haqqında rus müəlliflərindən ilk növbədə N.Şavrov[3] və S.Qlinka[4] məlumat vermişlər.

---

[1] Вердиева Х.Ю. Переселенческая политика Российской империи в северном Азербайджане в XIX - начале XX веков: Дис. …докт. ист. наук. Баку, 2002, 345 с.; Мамедова Л.А. Деятельность Армянских политических организаций в Азербайджане (1917-1920 гг.): Дис. …канд.ист.наук. Баку, 1996, 193 с.; Халилов А.Х. Геноцид против мусульманского населения Закавказья в 1917-1920 годах в исторических источниках: Дис. …канд.ист.наук. Баку, 1996, 224 с.; Шарифова А.А. Борьба за независимость к территориальную целостность Азербайджана в 1918-1920 гг.: Дис. …канд.ист.наук. Баку, 1998, 158 с.; Əlizadə M. Azərbaycanda türk-müsəlman soyqırımını öyrənmək üçün mənbələr (1918-1920-cu illər): Tarix elm.nam. …dis. Bakı, 2005, 182 s.

[2] Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996):Tarix elm. dok. …dis. Bakı, 1999, 428 s.; İsmayılov F. C. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və ABŞ-ın mövqeyi: Tarix elm.nam. …dis. Bakı, 2003, 187 s.; İmanova S. Azərbaycanın beynəlxalq parlament təşkilatları ilə əlaqələri (1992-1998-ciillər): Tarix elm.nam. …dis., Bakı, 2001, 158 s.; Hacıyeva X.Z. Azərbaycan Respublikasının xarici siyasətində qərb dövlətləri və NATO (1991-1995): Tarix. elm.nam. …dis. Bakı, 2001, 168 s.

[3] Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. Предстоящая распродажа Мугани Инородцам. Типография Редакции периодических изданий Министерства Финансов. Спб: 1911. Баку: Элм, 1990, 82 с.

[4] Глинка С.Н. Описания переселения армян азербайджанских в пределы России. Баку: Элм, 1990, 144 с.

V.Veliçko öz əsərində nəinki Rusiyanın Qafqazda yürütdüyü siyasəti tənqid etmiş, həm də Qafqazda yaşayan xalqların arasındakı münasibətləri də işıqlandırmışdı[1].

Osmanlı imperiyasında "erməni məsələsi"nin meydana çıxmasından bəhs edən V.Qurko-Kryajın Sovet Ermənistanı yarandıqdan sonra "Böyük Ermənistan" proqramının tamamilə, həmişəlik süquta uğramasından yazsa da, tarix bunun əksini sübut etdi[2]. Ermənilər "Böyük Ermənistan" planlarından əl çəkmədilər.

Müasir dövrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəbləri, gedişi ilə bağlı bir sıra əsərlər dərc olunub ki, bunların içərisində rus alim-publisisti Y.Pompeyevin kitabı diqqəti daha çox cəlb edir[3].

O, "Daşnaksütun"u beynəlxalq erməni terror təşkilatı adlandırmış və bu təşkilatın Dağlıq Qarabağda münaqişənin başlanmasına təkan verdiyini və onun arxasında durduğunu qeyd etmişdi.

Münaqişə ilə bağlı dərc edilmiş əsərlərin içərisində P.Çistyakovun məqaləsində Rusiyanın Ermənistana silah satdığı açıq etiraf edilsə də o, regionda sülh yolu ilə münaqişəni nizamlamaq və ümumi konsensusa gəlməyin tərəfdarı kimi çıxış edir[4] .

Digər rus müəllifi M.Feyqin qeyri-obyektiv mövqe tutaraq, öz məqaləsində Qafqazda Rusiyanın yeganə real müttəfiqi kimi yalnız xaçpərəst Ermənistanı görür. İslam ölkəsi olan Azərbaycanı isə təhlükə mənbəyi sayır[5].

Azərbaycanın MDB-də iştirakı, münaqişənin MDB çərçivəsində müzakirələrinə, Azərbaycanın Rusiya ilə əməkdaşlığına dair məsələlər S.Çernyayevski[6], A.Tsıqanok[7] və b. məqalələrində araşdırılmışdır.

Müasir dövrdə beynəlxalq münasibətlər, etnosiyasi və beynəlxalq münaqişələr bir sıra rus alimlərinin əsərlərində təhlil edilir ki, bunların

---

[1] Величко В. Кавказ. Русское дело и межплеменные вопросы С.Пб, : Типография Артели Печатного Дела, 190, 216 с. / Перепечатка. Баку: Элм, 1990

[2] Qurko-Kryajin V. Erməni məsələsi. Bakı: Kommunist, 1990, 31 s.

[3] Помпеев Ю.А. Кровавый омут Карабаха. Баку: Азербайджан, 1992, 208 с.

[4] Чистяков П. Что мешает разрешению карабахского конфликта. МГУ, http://www. geoconflict.narod.ru/chistyakov.

[5] Фейгин М. Закавказский узел // «Новый мир», №9, 1998, с.134-155

[6] Черняевский С. важный этап в развитии азербайджано-российских отношений.http://www.irs-az.com/gen./ISSUE 2005.Черняевский С. Кавказский вектор Российской дипломатии // Центральной Азия и Кавказ, 2000, №5 (11), с.102-111

[7] Цыганок А. Бывшее СНГ и его оборонное наследие. http: //www.novopol.ru/article 2923.

içərisində A.Zverev[1], L.Drobiyeva[2], A.Aklayev[3], P.Tsıqankov[4], Y.Primakovun[5] tədqiqatları xüsusilə seçilir. Lakin qeyd etmək lazımdır ki, bu müəlliflərin əksəriyyəti Cənubi Qafqazdakı hadisələri təhlil edərkən ilk növbədə Rusiyanın maraqları mövqeyindən çıxış edirlər.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rus dilində nəşr etdiyi "Mayendorfdan Astanaya: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin prinsipial cəhətləri" adlı kitabda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin prinsipial aspektləri öz əksini tapmışdır[6] .

Mövzu tədqiq edilərkən bəzi erməni müəlliflərinin əsərləri nəzərdən keçirilmişdir. Ermənilərin qədim və orta əsr tarixini tədqiq edən tarixçilərdən Q.Kapantsyan[7] , S.Yeremyan[8] və b. daha çox Bibliya və qədim əfsanələri mənbə kimi götürərək, erməni xalqının kökünü araşdırmağa cəhd göstərmişlər.

"Erməni məsələsi"nin meydana çıxması, XIX əsrin 70-ci illərindən etibarən imperialist dövlətlərin Türkiyəyə qarşı ermənilərdən bir vasitə kimi istifadə etməsini C.Kirakosyan öz kitabında təhlil etsə də, onun

---

[1] Зверев А. Этнические конфликты на Кавазе в 1988-1994 годах (см. Спорные границы на Кавказе под редакций Бруно Коппитерса. Сборник статей). М.:, Весь Мир,1996 г., 228 с.

[2] Дробижева Л.М. Этнополитические конфликты: причины и типология (в конце 1980-х -1990-е гг.) и Россия сегодня: Трудные поиски свободы. М.: Международные отношения 1993, с.240-242

[3] Аклаев А.Р. Этнополитическая конфликтология. М.: Дело, 2005, 472 с.

[4] Цыганков П.А. Теория международных отношений: Учеб. пособие. М.: Гардарики, 2002, 590 с.

[5] Примаков Е.М. Международные отношения накануне XXI века: проблемы, перспективы. На горизонте многополюсный мир // Международная жизнь. 1996. №10. с. 3-13

[6] От Майендорфа до Астаны: принципиальные аспекты армяно – азербайджанского накорно – карабахского конфликта. Под. ред. Г.М.Алексеева (доктор исторических наук, профессор МГУ им.М.В.Ломоносова). М.: «Кем», 2010, 552 с.

[7] Капанцян А. Хайаса-Колыбель армян. Ереван: Изд. А.Н.Арм.ССР, 1947, 290 с.

[8] Еремян С.Т. Раннее феодальные государства Закавказья в 3-7 вв. // Очерки истории СССР (3-9 вв.). М.: Правда, 1958, с. 304

əsərində "qaniçən Osmanlı imperiyası" və "yazıq ermənilər" ideyası üstünlük təşkil edir[1].

XX əsrin əvvəllərində və I Dünya müharibəsi illərində "Daşnaksütun" partiyasının "fəaliyyəti" A.Lalayanın məqaləsində öz tənqidi təhlilini tapmışdır[2]. O, məsələni bolşeviklərin mövqeyindən işıqlandırsa da, istər çar Rusiyasının imperiya siyasəti, istərsə də daşnakların Osmanlı dövləti və Qafqazdakı mürtəce fəaliyyətini işıqlandırmışdır.

Ermənistan EA-nın və Ermənistan Dövlət Universitetinin nəşr etdirdikləri kitablarda İrəvan torpağının qədim erməni yurdu kimi göstərilməsi ermənilərin Azərbaycan torpaqlarına həmişə iddia etdiklərini sübut edir[3] .

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanda nəşr edilən bir sıra məqalə və əsərlərdə, həmçinin kütləvi informasiya vasitələrində çap edilən məqalələrində Azərbaycan sülh yolu ilə münaqişənin nizamlanmasını istəməməkdə günahlandırılır. Ümumiyyətlə, münaqişənin həll edilməməsinin səbəbkarı kimi məhz Azərbaycan göstərilir. A.Qriqoryan, A.Melyanın məqalələrində məsələ bu şəkildə öz əksini tapmışdır[4].

Dissertasiya işi yazılarkən xarici mütəxəssislərin, politoloqların Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi, həmçinin beynəlxalq təşkilatların bu münaqişədə iştirakı ilə bağlı fikir və mülahizələri böyük maraq doğurduğu üçün araşdırılmışdır.

"Erməni məsələsi"ni obyektiv araşdıran müəlliflərdən biri Jorj de Malevildir ki, onun kitabında 1915-ci il Osmanlı imperiyasında baş verən hadisələrlə yanaşı, ermənilərin tarixi keçmişi, torpaq iddialarının səbəbləri də işıqlandırılmışdır[5].

---

[1] Киракосян Дж.С. Буржуазная дипломатия и Армения (70-е годы XIX века). Ереван: Издательство Ереванского университета, 1981, 310 с.

[2] Лалаян А. Контрреволюционный «Дашнакцутюн и империалистическая война 1914-1918 гг. // Известия Академии Наук Азербайджанской ССР. Серия: история, философия и права, 1989, №4, с.36-56

[3] Присоединение Восточной Армении к России и его историческое значение. Ереван: ЕГУ, 1978, 281 с.

[4] Григорян Александр. Баку не желает урегулирования нагорно-карабахского конфликта путем переговоров с армянскими сторонами. http: //www.spectrum.am/rus/articles.php; Мельян Ашот. Армения в Совете Европы–Ожидания и перспективы. http: //www. spectrum.am./engiarticles.php.

[5] Малевил Ж. Армянская трагедия 1915 года. Баку: Элм, 1990, 128 с.

Amerikalı alim, tarixçi C.Makkartinin kitablarında ermənilərin istər Osmanlı imperiyasında, istərsə də Qafqazda torpaq iddiaları və apardıqları müharibələr, onların türklərə, azərbaycanlılara olan nifrətinin səbəbləri geniş təhlil edilmişdir[1].

Erməni terrorizminin iç üzünü öz əsərində göstərən digər amerikalı müəllif S.A.Uimzdir. S.Uimz Dağlıq Qarabağ münaqişəsini araşdırmağa da cəhd göstərmiş, münaqişənin səbəblərini təhlil etmişdir[2]. Lakin bu müəlliflər münaqişədə beynəlxalq təşkilatların iştirakı məsələsini tədqiq etməmişlər.

Yuxarıda adları çəkilən tarixçilərlə yanaşı, bir çox politoloqların əsərlərində Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun tənzimlənməsində beynəlxalq təşkilatların iştirakı, həmçinin Azərbaycanın Cənubi Qafqaz regionunda tutduğu mövqe işıqlandırılmışdır.

Məşhur politoloq P.Qobblun tədqiqatlarında böyük dövlətlərin Qafqazdakı maraqları, regiondakı siyasi vəziyyət, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi variantları nəzərdən keçirilmişdir[3].

ABŞ-ın sabiq dövlət katibi, politoloq Z.Bjezinskinin kitabında Avrasiyada mövcud olan geosiyasi şərait təhlil edilmiş, Azərbaycan Ukrayna, Cənubi Koreya, Türkiyə və İranla bərabər beş geosiyasi mərkəzdən biri kimi göstərilmişdir[4]. Əsər regiondakı geosiyasi mübarizəni öyrənmək üçün çox əhəmiyyətlidir. Azərbaycanın NATO-ya daxil ola bilməsi və s. kimi məsələlər isə onun məqaləsində öz əksini tapmışdır ki, bu da müəllifin Azərbaycanı vacib geosiyasi mərkəz kimi həmişə diqqətdə saxlamasından xəbər verir [5].

---

[1] Маккарти Дж., Маккарти К. Тюрки и армяне. Руководство по армянскому вопросу. Баку: Азерб.государственное издательство, 1996, 134 с.

[2] Üimz S.A. Ermənistan-terrorçu "xristian" ölkənin gizlinləri (Ermənilərin böyük fırıldaq seriyaları). I cild. Bakı: OfsetAz.-TürkPoliqrafiyaşirkəti, 2004, 386 s.

[3] Gobble P. Disappearing Conflict // Azerbaijan International, Summer, 1997, p.92-99.; Gobble P. Pipeline Policy: the Geopolitics of the Tran Caucasus // Caspian Crossroads, Washington, Winter, 1995, №1, p.77-81.;Gobble P. "How The Goble Plan Wasborn" Tom de Vaal :Cherniy sad"-bberussian.com-http://news, bbc.co.uk./Russian-468 5000/ 4685287/stm/ - 2005.

[4] Бжезинский З. Великая шахматная доска. М.: Международные отношения, 1998, 256 с.

[5] Бжезинский З. «Вступление Азербайджана в НАТО вполне реально». Газ. «Зеркало», Баку, 2002, 27 ноября, № 225

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlarda ABŞ-ın nümayəndəsi olmuş C.Mareskanın əsərləri problemin öyrənilməsi baxımından çox mühümdür[1]. Münaqişənin ilk illərində Minsk Qrupunun işini bəyənməyən C.Mareska Rusiyanın bu münaqişədə «neoimperiya ambisiya»larını da tənqid etmişdir[2].

E.Herzinqin kitabında bütünlüklə Qafqaz regionuna qiymət verilmiş, Dağlıq Qarabağ münaqişəsi ilə yanaşı Qafqazdakı digər etnik münaqişələr də təhlil edilmişdir. Münaqişələrin tənzimlənməsində beynəlxalq təşkilatların fəaliyyəti, xüsusilə Dağlıq Qarabağ münaqişəsində Minsk Qrupunun fəaliyyəti geniş araşdırılmışdır[3].

Məşhur jurnalist T.Qoltzun kitabında və məqalələrində Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin işğal edilməsi, Xocalı faciəsi faktlar əsasında qələmə alınmış beynəlxalq təşkilatların, dünyanın qabaqcıl dövlətlərinin, xüsusilə ABŞ-ın mövqeyi geniş tədqiq edilmiş, hadisələrə obyektiv qiymət verilmişdir[4].

Digər jurnalist Tom de Vaalın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə baxışı da fikrimizcə olduqca maraqlıdır. Münaqişədə iştirak edən tərəflərdən aldığı müsahibələr, gördükləri hadisələrin təhlilini verən müəllif münaqişənin sülh yolu ilə nizamlanmasına üstünlük vermişdir[5].

Yuxarıda adları çəkilən müəlliflərlə yanaşı T.Streyqaz[6],

---

[1] Maresca J. Agony of indifference in Nagorno-Karabakh // The Chiristian Science Monitor, 27 June 1999. p.19.

[2] Maresca J. War in the Caucasus: a proposal for settlement of the conflict over Nagorno-Karabakh. Special report. United States Institute of Pease, July, 1994 (electronic recourse).

[3] Herzng E. New Caucasus: Armenia, Azerbaijan and Georgia. The Royal Institute of International Affairs. London. New-York. 1999, 165 p.

[4] Гольц Т. Ходжалы. Газ. «Наш век», Баку, 2007, 23 февраля-1марта. №7, с.11-12; Goltz Thomas. Letter from Eurasia // The hidden Russian Hand. Foreign policy, 1993, Fall №92, pp.76-80; Goltz Thomas. Azerbaijan diary: a rogue reports's adventures in an oil-rich, war-torn, post-Soviet republic. New-York: M.E. Sharpe, 1998, p.185

[5] Ваал Т. Черный сад. Армения и Азербайджан между миром и войной. М.: Текст, 2005, 413 с.; Ваал Т. Черный сад. Между миром и войной. bbc. Russian.com. -http: //www. news., bbc.co.uk./Russian 4685000/4685287. stm-2005.r.

[6] Streissguth T. The Trans Caucasus. Former Soviet Republics. San Diego.Lusent Books P.O. Box 289011, 2001, pp.5-25

E.Roberts[1], U.Kristofer[2] və başqalarının əsərləri tədqiq olunan mövzuyla bağlı nəzərdən keçirilmişdir. Mövzunun öyrənilməsi ilə bağlı xarici müəlliflərin əsərlərinin təhlili onların münaqişəyə münasibətini yaxından öyrənmək üçün faydalıdır.

Tədqiqat zamanı bir sıra təşkilatların məlumatları da nəzərdən keçirilmiş, bir çox beynəlxalq təşkilatların, həmçinin dövlət müəssisələrinin rəsmi internet saytlarından da istifadə olunmuşdur və s.

Bütövlükdə qeyd olunan mənbə və ədəbiyyatların əhəmiyyətini azaltmadan qeyd etmək lazımdır ki, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların iştirakı problemi kompleks şəkildə tədqiq edilməmişdir. Halbuki, buna ciddi ehtiyac var və yalnız bu yolla beynəlxalq təşkilatların münaqişədə iştirakını, onların mövqeyini öyrənmək və münaqişənin təmzimlənməsi yollarını proqnozlaşdırmaq olar. Problemin məhz kompleks şəkildə tədqiqinin böyük elmi, siyasi və mənəvi əhəmiyyəti vardır və bu, dissertasiyanın mövzusunu şərtləndirir.

**Tədqiqatın mənbəşünaslıq bazasını** Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun tənzimlənməsində beynəlxalq təşkilatların iştirakı ilə bağlı sənəd və materiallar təşkil edir.

Bu sənəd və materialları aşağıdakı şəkildə qruplaşdırmaq olar: a) Azərbaycan Respublikasının rəsmi dövlət və hökumət sənədləri; b) beynəlxalq hüquqi sənədlər; c) arxiv sənədləri; d) hüquqi-normativ aktlar; e) Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində iştirak edən dövlətlərin rəsmi şəxslərinin dövrü mətbuatda çap edilən çıxışları, müsahibələri, məruzələri və s.; q) respublika və xarici ölkələrin dövrü mətbuatının rəsmi xəbərləri, xarici və respublika informasiya agentliklərinin məlumatları və internet materialları.

Azərbaycan Respublikasının rəsmi dövlət və hökumət sənədləri sırasına ilk növbədə Azərbaycan Respublikasının Konstitusiyası aiddir. Beynəlxalq hüquqi sənədlər sırasına BMT-nin Nizamnaməsi, BMT-nin sənədləri, ATƏT-in Helsinki Yekun Aktı, İstanbul xartiyası (1999-cu il), ATƏT-in Zirvə və digər görüşlərinin sənədlləri, Avropa Şurasının sənədləri, MDB-nin sənədləri, İKT-nin sənədləri, bəyanatlar, çıxışlar və s. daxildir. Tədqiqat zamanı bu sənədlərdən geniş istifadə edilmişdir.

---

[1] Roberts E. The Former Soviet states Georgia, Armenia and Azerbaijan Connecticut: The Millbrook press, Brookfield, 1998, pp.11-18

[2] Christofer W.J. Armenia and Karabagh: the struggle for unite. WDS: GM, 1991, pp.17-21

Problemi öyrənmək üçün arxiv sənədlərindən geniş istifadə olunmuşdur. Arxiv sənədləri tədqiqat üçün tarixi həqiqətləri aşkarlamaq üçün tükənməz çeşmədir. Dissertasiyada istifadə edilmiş faktların əksəriyyəti Azərbaycan Respublikasının Dövlət Tarix Arxivinin fondlarından, Azərbaycan Respublikasının Dövlət Arxivinin fondlarından, Azərbaycan Respublikasının Milli Məclisinin Arxivi, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Azərbaycan Respublikasının Dövlət Komissiyasının (İşçi Qrupunun) arxiv materialları, Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivinin fondundan, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Beynəlxalq təşkilatlarla əlaqələr idarəsinin cari arxivindən[1] götürülmüşdür. Bu sənədlərdəki materiallar öyrənilmiş, işlənilmiş və dissertasiyanın mövzusu ilə bağlı ən zəruriləri seçilib istifadə edilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun tənzimlənməsi ilə bağlı Azərbaycanın ümummilli lideri Heydər Əliyevin çıxışları, bəyanatları, müsahibələri, məktub və məruzələri problemi öyrən-məkdə mühüm mənbədir. Bu sənədlər "Müstəqilliyimiz əbədidir" adlı fundamental çoxcildlikdə toplanmışdır. Çoxcildlikdə sənədlər xronoloji ardıcıllıqla 1993-cü ilin iyun ayından 2000-ci ilin iyul ayına qədərki dövrü əhatə edir. Heydər Əliyevin diplomatik fəaliyyəti, xarici siyasət xəttini əks etdirən bu sənədlər tədqiqat zamanı istifadə edilmişdir.[2]

Digər mənbə Heydər Əliyevin xarici ölkələrə səfərlərinə dair rəsmi məlumatları verən dövlət agentliyi AzərTac-ın problemlə bağlı işıqlandırdığı məlumatlardır ki, bu da "Azərbaycan beynəlxalq aləmdə" adlı çoxcildliyində öz əksini tapmışdır. Burada Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyünün qorunması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində gördüyü işlər öz əksini tapmışdır. Kitabda ümummilli liderin xarici dövlətlərin başçıları, beynəlxalq təşkilatların nümayəndələri,xüsusilə Ermənistan-Azərbaycan,

---

[1] Azərbaycan Respublikasının Dövlət Tarixi Arxivi; Azərbaycan Respublikasının Dövlət Arxivi; Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi; Azərbaycan Respublikası Milli Məclisinin Arxivi; Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Azərbaycan Respublikası Dövlət Komissiyasının (İşçi Qrupunun) Arxivi; Azərbaycan Respublikası XİN – in Beynəlxalq Təşkilatlarla əlaqələr idarəsinin cari arxivi (İslam Konfransı Təşkilatı 1999 – 2000 – ci illər)

[2] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 46 kitab.1-25-ci kitab. Bakı: Azərnəşr, 1997-2008

Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı ATƏT-in həmsədrləri ilə keçirdiyi ikitərəfli və çoxtərəfli danışıqlar geniş işıqlandırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çıxışları, bəyanat və müsahibələri, məruzələri mühüm mənbə kimi olduqca əhəmiyyətlidir.[1]

Həmçinin beynəlxalq təşkilatların nümayəndələrinin Azərbaycana səfərləri zamanı etdikləri çıxışlar, münaqişənin tənzimlənməsi ilə bağlı fəaliyyətlərini əks etdirən kitablar, dövrü mətbuatda çap edilən müsahibələr, nitqlər məsələni öyrənmək üçün əhəmiyyətlidir.

Kütləvi informasiya vasitələrinin materialları dissertasiya yazılarkən istifadə edilmiş mənbələrdən birini təşkil edir. Azərbaycan Respublikasının "Azərbaycan", "Xalq", "Respublika", "Exo", "Zerkalo" və s., həmçinin Rusiyanın "Nezavisimaya qazeta", "Moskovskaya pravda" və s. kimi qəzetlərinə müraciət olunmuşdur. Bir sıra beynəlxalq təşkilatların rəsmi məlumatlarını əks etdirən saytlar mövzu ilə bağlı müəyyən məqalələr, müsahibələr verilmiş veb səhifələrdən də geniş şəkildə istifadə olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyada qarşıya qoyulan başlıca məqsəd Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların iştirakını ilk mənbələr əsasında tədqiq edərək, konkret şəkildə ümumiləşdirməkdən ibarətdir. Bu məqsədi həyata keçirmək üçün tədqiqatın qarşısına aşağıdakı vəzifələr qoyulmuşdur:

- Ermənistan-Azərbaycan münaqişəsinin tarixi köklərini araşdıraraq Dağlıq Qarabağ məsələsinin yaranmasının ilkin səbəblərini göstərmək, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının əsassız olduğunu sübut etmək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində ilkin cəhdləri geniş təhlil etmək;
- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin məhəlli və beynəlxalq xüsusiyyətlərini tədqiq edərək münaqişənin hüquqi aspektlərini öyrənmək;
- Heydər Əliyevin xarici siyasət kursunun beynəlxalq təşkilatlarla əməkdaşlığın strategiyası olmasını göstərərək, Azərbaycan Respublikasının xarici siyasətində beynəlxalq təşkilatların yerini müəyyənləşdirmək, Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığının məqsədlərini təhlil etmək;

[1] Əliyev İ.H. Azərbaycanıma inanıram. Bakı: Azərbaycan, 2007, 376 s.

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üçün Azərbaycanın beynəlxalq təşkilatlarda iştirakının zəruriliyini göstərmək;

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində BMT-nin rolunu nəzərdən keçirərək qiymətləndirmək;

- Dağlıq Qarabağ münaqişəsinin həllində NATO-nun tutduğu mövqeyi araşdırmaq və bu münaqişənin nizamlanmasında Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığının əhəmiyyətini göstərmək;

- Azərbaycanın Avropaya inteqrasiya olunmasında Avropa təşkilatlarının rolunu aydınlaşdırmaq, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində ATƏT-in Minsk Qrupunun fəaliyyətini öyrənmək, təhlil edərək mövqeyini qiymətləndirmək;

- Avropa Şurası və Avropa Birliyinin bu münaqişənin həllində tutduğu mövqeyi müəyyənləşdirmək, məsələyə ikili standartlar baxımından yanaşmanın mənfi tərəflərini işıqlandırmaq. Münaqişənin tənzimlənməsi istiqamətində irəli sürülən konkret təklif və tövsiyələri qiymətləndirmək;

- Azərbaycanın beynəlxalq parlament təşkilatları ilə əməkdaşlığı çərçivəsində münaqişəni həll etməyə çalışmasını göstərmək;

- Azərbaycan Respublikasının MDB-də iştirakını araşdırmaq və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində MDB-nin rolunun əhəmiyyətini müəyyənləşdirmək;

- İslam ölkələri ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin başlıca istiqamətlərindən biri olduğu üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin İslam Konfransı Təşkilatı çərçivəsində müzakirəsini nəzərdən keçirmək, İKT-nin münaqişəyə münasibətini göstərmək;

- Azərbaycan Respublikasının Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində yaranmış əsir, girov və itkinlər probleminin nizamlanmasında Beynəlxalq Qızıl Xaç Komitəsində iştirakını təhlili edib qiymətləndirmək.

**Tədqiqatın xronoloji çərçivəsi.** 1991-2005-ci illəri təşkil edir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixinə nəzər salsaq, onu şərti olaraq üç mərhələyə bölmək olar. Birinci mərhələ 1991-1994-cü illəri əhatə edir ki, bu dövrdə Azərbaycan Respublikası BMT (1992 mart), ATƏM (1992 yanvar), İKT (1991 dekabr), MDB (1993, sentyabr) kimi beynəlxalq təşkilatların üzvü olub, NATO ilə əlaqələr yaradır. Bu mərhələdə Azərbaycan Respublikasının müstəqil xarici siyasət

konsepsiyası formalaşmağa başlamış, öz təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan yuxarıda adları çəkilən təşkilatların işində fəal iştirak edir. Bu dövrdə ATƏT çərçivəsində Minsk Qrupu yaradıldı, onun həmsədrlik institutu təsis edildi və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ATƏT-in Minsk prosesi çərçivəsində tənzimlənməyə başladı.

İkinci mərhələ 1995-1999-cu illəri əhatə edir ki, bu dövrdə Azərbaycan tərəfi bir sıra mübahisəli məsələləri həll etməyə çalışmış, öz mövqeyini daha da möhkəmləndirərək, 1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşündə münaqişə ilə bağlı prinsiplərin qəbul edilməsinə nail olmuşdu (Ermənistan bu təklifləri qəbul etməmişdir). 1995-1999-cu illər ərzində ATƏT-in Minsk Qrupunun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində aparılan fəaliyyətinə qiymət versək, onun heç bir nəticə vermədiyini görərik. 1995-1999-cu illər ərzində Azərbaycan Respublikası kifayət qədər fəal mövqe tutaraq BMT-nin keçirdiyi bütün tədbirlərdə iştirak etmiş, BMT-nin tribunasından Ermənistanın təcavüzkar olduğunu bəyan etmişdir. 1995-1999-cu illərdə Azərbaycanın beynəlxalq təşkilatlarda iştirakı fəallaşmış, nüfuzu güclənmiş  və Azərbaycan münaqişənin Avropa Şurası, Avropa İttifaqı, MDB, İKT-nin görüşlərində, keçirdiyi tədbirlərində müzakirə edilməsinə nail olmuşdu.

2000-ci ildən  2005-ci ilə qədər (o cümlədən bu günə qədər) olan dövrü münaqişənin üçüncü mərhələsi adlandırmaq olar. Bu dövrdə artıq bir çox təşkilatlar münaqişənin tezliklə aradan qaldırılmasında maraqlı olduqlarını bildirmiş, yalnız ATƏT-in Minsk Qrupu çərçivəsində deyil, Avropa Şurasında da münaqişənin nizamlanması ilə bağlı təkliflər irəli sürülmüş, bir sıra qətnamələr qəbul edilmişdir.Xüsusilə, 2005-ci il yanvarın 25-də qəbul edilmiş 1416 №-li qətnamə və 1690 №-li tövsiyənin böyük əhəmiyyəti oldu. Sənəddə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, işğal olunmuş ərazilərdən silahlı qüvvələrin çıxarılması təkid edildi. Lakin bu illər ərzində ATƏT-in qəti addımlar ata bilməməsi üzündən münaqişəyə obyektiv siyasi qiymət verilməmişdi.

Münaqişə dəfələrlə parlamentlərarası əməkdaşlıq çərçivəsində baş verən görüşlərdə də müzakirə edilmişdir.

Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı bu dövrdə yeni mərhələyə daxil olmuşdur. Azərbaycanın digər beynəlxalq təşkilatlarla yanaşı, həmçinin NATO-ya da inteqrasiya olması Azərbaycanın xarici

siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

Üçüncü mərhələdə Azərbaycan Respublikasının MDB-də iştirakı daha səmərəli oldu. İstər iqtisadi, istərsə də siyasi sahədə əməkdaşlıq daha da genişləndi. Bu mərhələdə İKT ilə Azərbaycanın əməkdaşlığı genişlənmiş, Azərbaycanın fəallığı sayəsində İKT tərəfindən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çoxlu sayda qətnamələr qəbul edilmişdi və Azərbaycanın mövqeyi müdafiə olunmuşdu. Həmçinin, bu dövrdə Azərbaycan Respublikası Azərbaycan xalqına qarşı Ermənistan tərəfindən həyata keçirilən soyqırım siyasətinin dünya ictimaiyyyətinə çatdırılması, törədilmiş təcavüzün nəticəsində əsir və girov götürülmüş şəxslərin vətənə qaytarılması, itkin düşmüş vətəndaşların axtarılması işinin səmərəliliyinin artırılması məqsədilə Beynəlxalq Qızıl Xaç Komitəsi ilə əməkdaşlıq etmişdir. Münaqişə bu günə qədər həllini tapmadığı üçün dissertasiyada ümumi xronoloji çərçivədən bir qədər kənara çıxaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bu günkü vəziyyəti və gələcək nizamlama prosesinin perspektivləri də nəzərdən keçirilmişdir.

**Dissertasiya işinin metodoloji əsası.** Dissertasiya işinin metodoloji əsasını tarixilik və obyektivlik prinsipləri təşkil edir. Dissertasiya işi yazılarkən tarixi təsvir, analiz və sintez, ümumiləşdirmə, induksiya, deduksiya metodlarından geniş istifadə olunmuşdur. Tarixi təsvir metodu tarixi həqiqətləri,hadisələrin səbəb və nəticələrini, tarixi prosesin özünü aşkara çıxarmaq və dərk etmək üçün vacibdir. Ermənilərin Azərbaycana qarşı irəli sürdükləri ərazi iddialarının səbəblərini, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaranması tarixinin işıqlandırılması tarixi təsvir metodu vasitəsilə mümkün olmuşdur. Lakin hadisələri təsvir edərkən analiz və sintez,ümumiləşdirmə və nəticə çıxarmadan istifadə olunmuş, Dağlıq Qarabağ münaqişəsinin səbəbləri və onun nizamlanması istiqamətində ilkin cəhdlərin nəticələrinin təhlili verilmişdir. Həmçinin, müqayisəli və sistemli təhlil metodlarından da istifadə edilmişdir. Müqayisəli tarixi təhlilin birinci mərhələsi tarixi hadisələr, şəxsiyyətlər arasında analogiyaların aparılması olduğu üçün ilk növbədə XIX əsrin sonu, XX əsrin əvvəllərində və XX əsrin sonu, XXI əsrin əvvəllərində erməni daşnaklarının fəaliyyətinin oxşarlıq təşkil etməsi ortaya çıxarılmışdır. Həmçinin, hadisələrin məzmun xarakterli müqayisəsi də edilmişdir. Dissertasiyada müqayisəli siyasi təhlilə də üstünlük verilmişdir. Xüsusilə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların iştirakının təhlil edilməsində bu metoddan istifadə edilmişdir.

**Dissertasiyanın elmi yeniliyi** ondan ibarətdir ki, burada ilk dəfə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların iştirakı hərətəfli, məqsədyönlü və kompleks şəkildə tədqiq olunmuşdur;

- Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilk dəfə olaraq yeni arxiv sənədləri əsasında geniş və tam şəkildə təhlil edilmiş, münaqişənin nizamlanması istiqamətində ilkin cəhdlər yeni materialların dövriyyəyə gətirilməsi ilə araşdırılmışdır;
- Azərbaycan Respublikasının xarici siyasətində beynəlxalq təşkilatların yeri göstərilməklə, ilk dəfə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üçün Azərbaycanın beynəlxalq təşkilatlarda iştirakının zəruriliyi əsaslandırılmışdır;
- Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında BMT və NATO-nun iştirakına yeni arxiv materialları əsasında qiymət verilmişdir;
- Münaqişənin tənzimlənməsində Avropa təşkilatlarının, xüsusilə ATƏT-in Minsk Qrupunun fəaliyyəti və mövqeyi ilk dəfə olaraq 1991-2005-ci illəri əhatə edən dövr üçün geniş öyrənilmişdir;
- Azərbaycan Respublikası Milli Məclisinin Arxivinin sənədləri ilk dəfə elmi dövriyyəyə gətirilərək Azərbaycanın beynəlxalq parlament təşkilatları ilə əməkdaşlığı çərçivəsində münaqişəni sülh yolu ilə həll etməyə çalışması təhlil edilmişdir;
- Azərbaycanın MDB-də iştirakının əhəmiyyəti və MDB-nin münaqişəyə münasibətində mövqeyi yeni faktlar əsasında araşdırılmışdır;
- Münaqişənin İKT-də müzakirəsi və düzgün qiymətləndirilməsi ilk dəfə arxiv materialları əsasında təhlil edilmişdir;
- Azərbaycan Respublikasına qarşı Ermənistan tərəfindən edilmiş təcavüzün nəticəsində əsir və girov götürülmüş şəxslərin vətənə qaytarılması, itkin düşmüş vətəndaşların axtarılması məqsədilə ilk dəfə olaraq Azərbaycanın BQXK ilə əməkdaşlığına aid yeni arxiv sənədləri elmi dövriyyəyə cəlb olunmuşdur;
- problemin tədqiqi sahəsində əldə edilmiş elmi qənaətlər ardıcıl, sistemli, həm də konkret şəkildə ümumiləşdirilmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Dissertasiyanın nəzəri yekunları, elmi ümumiləşdirmələri və ondakı faktiki materiallar:

- Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların iştirakı ilə bağlı yeni iri həcmli kitablar yazılarkən,ali məktəblərin tarix, beynəlxalq münasibətlər

fakültələrində, orta ixtisas məktəblərində, kolleclərdə və digər tədris müəssisələrində mühazirələr və ixtisas kursları oxunarkən istifadə oluna bilər;

- dissertasiyada ilk dəfə elmi dövriyyəyə gətirilən materiallar gənc nəsil tərəfindən erməni ideoloqlarının xalqımıza və dövlətimizə qarşı qurduqları planların daha da dərindən öyrənilməsinə kömək edə bilər. Bu faktlar istər Azərbaycan tarixinin, istərsə də dövrlə bağlı aktual problemlərin tədrisində istifadə edilə bilər;
- Müstəqil Azərbaycanın gənc nəslinin elmi və ideoloji cəhətdən hazırlanmasında köməkçi rolunu oynaya bilər;
- həmçinin, Azərbaycan Respublikasının xarici siyasət və xarici ölkələrlə diplomatik əlaqələri ilə məşğul olan və bu sahəyə rəhbərlik edən müəssisə, idarə və təşkilatların fəaliyyətində istifadə oluna bilər;

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın əsas müddəaları bir monoqrafiyada və Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi müxtəlif elmi jurnallarda dərc olunan 20-dən çox elmi-metodiki məqalədə öz əksini tapmışdır. Tədqiqatın nəticələri ilə bağlı Azərbaycan Dövlət Pedaqoji Universitetinin Türk və Şərqi Avropa xalqlarının tarixi və tarixin tədrisi metodikası kafedrasında, respublika və beynəlxalq elmi konfranslarda məruzələr edilmişdir.

**Dissertasiyanın quruluşu** Dissertasiya girişdən, üç fəsildən, nəticə və istifadə edilmiş mənbə və ədəbiyyatdan ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **“Giriş”**ində mövzunun aktuallığı, obyekt və predmeti, məqsəd və vəzifələri, xronoloji çərçivəsi, problemin mənbəşünaslıq bazası, metodoloji əsasları müəyyənləşdirilmiş, elmi yeniliyi və praktik əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın **“Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun tənzimlənməsi istiqamətində ilkin cəhdlər”** adlı I fəsli üç yarımfəsildən ibarətdir. Bu fəslin “Ermənistanın Azərbaycana qarşı ərazi iddiları” (1.1) adlanan birinci yarımfəslində ermənilərin ərazi iddialarının əsassız olduğu göstərilmişdir. Qarabağ ərazisində erməni müəlliflərinin dediyi kimi, tarixi Ermənistan dövləti nəinki mövcud olmuş, hətta erməni əhalisi demək olar ki, mövcud olmamışdı. Müxtəlif dövrlərdə (xüsusilə xilafət dövründə alban kilsəsinin qriqoryanlaşması ilə əlaqədar) buraya çox az miqdarda erməni kilsə xadimləri gəlmişlər. Lakin erməni kilsəsinin təsiri altında olan Arsaq əhalisi monofizitliyi qoruyub saxlamaq üçün vaxt keçdikcə qriqoriyanlaşmış, sonra isə erməniləşmişdir. Bu barədə bir çox tədqiqatçıların fikri yekdildir. Akademik Z.Bünyadov Aranın (yəni Albaniyanın-S.S.) dağlıq ərazilərində yaşayan albanların erməniləşməsini göstərir[1]. Bu barədə F.Məmmədova yazır: “Erməni kilsəsi ilə ehkam birliyi (monofizitliyi) qoruyub saxlayan Arsaq əhalisi ərəb xilafətinin və erməni kilsəsinin səyi ilə tədricən qriqoriyanlaşmış, sonralar erməni dilini və erməni mədəniyyətini qəbul etmiş, başqa sözlə desək, erməniləşmişdir”[2] . Bunu hətta, erməni tarixçisi S.T.Yeremyan da təsdiq edir. O göstərir ki, albanların bir hissəsi sonradan erməniləşmişdir[3] .

Azərbaycana (Qarabağa) ermənilərin köçməsi hələ onların bu ərazidə dövlətlərinin olması demək deyildir. Qafqaz arxeoqrafik komissiyasının aktlarında Türkmənçay müqaviləsinin bağlanmasına qədər Qarabağda yaşayan 12 min ailənin yalnız 2,5 mini qeyri-müsəlman idi[4]. Çox guman ki, bu 2,5 min xristian ailənin heç də hamısı erməni olmamışdır. Ümumiyyətlə, Gülüstan və Türkmənçay müqaviləsinin bağlanmasına, yəni XIX əsrin əvvəllərinə qədər Zaqafqaziyada erməni əhalisinin sayı çox cüzi idi.

---

[1] Буниятов З.М. Азербайджан в 7-9 вв. Работы по истории и источниковедению Азербайджана и Арабского халифата. Т.1. Баку: Элм, 1999, с.202

[2] Məmmədova F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası (e.ə. III əsr – er.VII əsri). Bakı: Azərnəşr, s. 95

[3] Еремян С.Т. Раннее феодальные государства Закавказья в 3-7 вв.//Очерки истории СССР (3-7 вв.). М.: Правда, 1958, с. 304

[4] Paşayev A. Ə. Açılmamış səhifələrin izi ilə. Bakı: Azərbaycan, 2001, s.133

S.A.Uimz yazır ki, xristian ermənilər 1800-cü illərdən başlayaraq ruslar tərəfindən Qafqaza gətirilmiş və onlara torpaq verilmişdir-həmin torpaqları ruslar silah gücünə ərazidən dərbədər saldıqları müsəlmanlardan almışdı[1].

Bu barədə N.N.Şavrovun fikirləri olduqca maraqlıdır. O yazırdı ki, "biz müstəmləkəçilik fəaliyyətinə Zaqafqaziyada rus əhalisinin deyil, bizə yad olan xalqların… yerləşdirilməsindən başladıq… müharibədən sonrakı 2 il ərzində 1828-dən 1830 cu ilə kimi biz Zaqafqaziyaya İrandan 40 mindən çox, Osmanlı imperiyasından 84 mindən çox erməni köçürmüş və onları erməni əhalisinin azlıq təşkil etdiyi Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı xəzinə torpaqlarında… yerləşdirmişik."[2] .

Bu yarımfəsildə "Erməni məsələsinin" yaranmasının ilkin səbəbləri təhlil edilir və bu məsələdə Rusiyanın özünəməxsus ermənipərəst siyasəti və mövqeyi xüsusilə qeyd edilir. "Erməni məsələsi" adlandırılan məsələ rus-türk ziddiyətlərinin məhsulu kimi ortaya çıxmışdır. Əgər XIX əsrin 80-ci illərindən etibarən ermənilər Osmanlı imperiyasında mütəşəkkil şəkildə üsyanlar etmişdilərsə, Qafqazda ermənilərin cinayətkar fəaliyyəti məhz "Daşnaksütun"nun başçılığı altında XX əsrin əvvəllərində daha böyük vüsət aldı. Çar Rusiyasının süqutundan sonra,müstəqillik əldə etmiş Ermənistan Azərbaycana qarşı müharibəyə başladı. Yarımfəsildə göstərilir ki, Ermənistan Respublikasının 1918- ci il mayın 28-də elan edilməsinə baxmayaraq onun nə ərazisi, nə də paytaxtı var idi. Bir gün sonra mayın 29-da Azərbaycan Xalq Cümhuriyyəti (AXC) İrəvan şəhəri və İrəvan qəzasını (400 min əhali) Ermənistana verdi. 400 minlik əhalinin içərisində müsəlmanlar (azərbaycanlılar, kürdlər və s.) üstünlük təşkil edirdilər[3]. Lakin təəssüf ki, AXC rəhbərlərinin bu güzəşti erməniləri sakitləşdirmədi. Əksinə, onlar yeni torpaq iddiaları irəli sürürdülər ki, bu iddialar müasir dövrümüzə qədər səngimir və Azərbaycan xalqının ən böyük bəlasına çevrilmişdir.

Bolşeviklər Azərbaycanı və bütünlüklə Qafqazı işğal etdikdən sonra, erməni bolşevik-daşnakları Azərbaycan Respublikasında mükəmməl,

---

[1] Üimz S.A. Ermənistan – terrorçu «xristian» ölkənin gizlinləri (Ermənilərin böyük fırıldaq seriyaları). I cild. Bakı: Ofset Az.-Türk Poliqrafiya şirkəti, 2004, s.362

[2] Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. Предстоящая распродажа Мугани Инородцам. Типография Редакции периодических изданий Министерства Финансов. Спб: 1911. Баку: Элм, 1990, с. 59-61

[3] Наджафов Б. И. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX- начале XX века. ч.2, Баку: Шарг-Гарб 1994, с.2, 94-95

məqsədyönlü plan əsasında iş quraraq rəhbər vəzifələri ələ keçirirdilər. Xüsusilə, Gəncə üsyanının məğlubiyyətindən sonra ermənilər xüsusilə azğınlaşmışdılar və talançılıqla məşğul olurdular. Hətta hakimiyyətə yenicə gəlmiş kommunistlər bunu etiraf etməyə məcbur olur və bununla mübarizə aparırdılar[1]. Getdikcə, Azərbaycan ərazisində heç vaxt mövcud olmayan "Qarabağ məsələsi" yaranırdı. Erməni bolşevik-daşnakları demək olar ki, əksər büro iclaslarında "Qarabağ məsələsini" müzakirəyə qoyurdular. 1923-cü il iyulun 7-də rəsmi olaraq Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında Azərbaycan MİK-in dekreti çıxdı[2]. Nəticədə, Qarabağ ərazisi əslində 1923-cü ildə "ermənilərə Rusiya tərəfindən verildi".

1987-ci ilin noyabrında milliyyətcə erməni olan akademik Abel Aqanbekyan (SSRİ-nin ilk prezidenti olan M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri) Fransanın "Humanite" qəzetinə verdiyi müsahibədə Azərbaycan SSR-nin tərkibində olan Dağlıq Qarabağ Muxtar Vilayətinin coğrafi nöqteyi-nəzərdən Ermənistan SSR-ə birləşdirilməsinin məqsədəuyğun olmasını bildirdi və demokratiya şəraitində bu problemin həllinin mümkün olacağını söylədi[3]. Məhz bu dövrdən etibarən "Daşnaksütun"un üzvləri erməni kommunistlərinin himəyadarlığı ilə fəaliyyətə başladılar. Müxtəlif leqal və qeyri-leqal təşkilatlar yarandı. Göstərilənlər bu nəticəyə gəlməyə əsas verir ki, ermənilərin apardıqları təbliğat nəticəsində azərbaycanlılarla ermənilər arasında ziddiyyətlər get-gedə kəskinləşdi.

Dissertasiyanın I fəslinin ikinci yarımfəsli "Ermənistanın Dağlıq Qarabağı ilhaqı siyasəti yeni mərhələdə" (XX əsrin 80-ci illərinin sonu 90-cı illərin əvvəli) (1.2) adlanır. 1988-ci ildə Ermənistan beynəlxalq hüquq normalarını pozaraq Dağlıq Qarabağın özünə birləşdirilməsi məqsədilə aşkar fəaliyyətə başladı. Dağlıq Qarabağ ərazisində yaşayan ermənilər öz müqəddəratını təyin etmə hüququnu bəhanə edərək Azərbaycana tabe olmaqdan imtina etdilər. Hadisələr get-gedə gərginləşirdi. Lakin SSRİ hökuməti milli toqquşmanın qarşısını almaq üçün heç bir tədbir görmədi.

---

[1] Azərbaycan Respublikası Dövlət Arxivi: f.410, siy.1, iş 106, v. 1-2

[2] К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР. 1918-1925. Документы и материалы. Баку: Азербайджанское государственное Издательство, 1989, с. 152-153

[3] Карабахский конфликт: азербайджанский взгляд: Сборник / сост: ИА. Редпит, М.:, Изд-во Европа, 2006, с.83; Начало Карабахского конфликта / Из серии Карабахские реалии. Баку: Фонд Гейдара Алиева, 2006, с.7

1988-ci il fevralın 27-də Sov.İKP MK-nın Baş Katibi  hər iki xalqa müraciət edərək,emosiyalara uymamağa, sosialist beynəlmiləlçiliyinə, qardaşlıq və dostluğa çağırdı. Bu müraciət Sovet hökumətinin məsələyə qeyri-ciddi münasibətindən və  hökumət böhranından xəbər verirdi.

1988-ci ilin əvvəllərində Sumqayıt faciəsi Ermənistandan azərbaycanlıların  qovulmasını sürətləndirdi. Beləliklə, 4.4 min kv.km. ərazisi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Vilayət Soveti 1988-ci ilin fevralından etibarən Azərbaycan SSR-nin tərkibindən çıxdığını və Ermənistan SSR-ə birləşdiyini elan etdi.

1989-cu il noyabrın 28-də "Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyəti normal hala salmaq tədbirləri haqqında" qərar qəbul olundu. Qərarla DQMV üzrə xüsusi idarə forması ləğv edildi. Azərbaycan Respublikasının təşkilat komitəsinin, SSRİ Ali sovetinin Nəzarət Komissiyasının təşkil edilməsi qərara alınsa da, vəziyyəti normallaşdırmaq mümkün olmadı. DQMV-nin idarə və müəssisələri 42 gün ərzində Ermənistana tabe edildi[1]. Azərbaycan SSR-nin dövlət atributları dəyişdirildi  və Ermənistan SSR-in bayrağı,gerbi və s. atributlarla əvəz edildi.

SSRİ hökuməti, xüsusilə SSRİ prezidenti M.Qorbaçov nəinki qətiyyətsizlik göstərir, ermənilərə himayədarlıq etməkdə davam edirdi. 1989-cu il dekabrın 1-də SSRİ rəhbərliyi ilə hesablaşmayaraq, üzdəniraq "Qorbaçov demokratiyasın"dan sui-istifadə edən Ermənistan SSR - nin Ali Soveti Dağlıq Qarabağın Milli Şurası ilə birgə "birləşmə haqqında" qərar qəbul etdi[2] .

Dissertasiyada göstərilir ki, Dağlıq Qarabağ problemi məhz ittifaq dövründə yaranmış, SSRİ rəhbərliyi-M.Qorbaçov tərəfindən dəstəklənmişdi.

1991- ci ilin noyabrında Moskva yaxınlığında, Novo-Oqoryovada 7 dövlət başçısının görüşündə və dekabrin 8-də isə Minsk yaxınlığında Belovejskaya Puşadakı Rusiya, Ukrayna və Belorus dövlət başçılarının görüşlərindən sonra, Müstəqil Dövlətlər Birliyinin yaradılması, SSRİ-nin hüqüqi subyekt kimi mövcudluğuna son qoyulması, ölkədaxili yeni ziddiyyətlərin  yaranmasına gətirib çıxardı. Bu dövrdə ölkə prezidentinin

---

[1] Помпеев Ю.А. Кровавый омут  Карабаха. Баку: Азербайджан, 1992, с. 130

[2] Azərbaycan Respublikası Milli Məclisinin Arxivi.  Beynəlxalq münsasibətlər şöbəsi,Qara dəniz iqtisadi əməkdaşlığı məclisinin işinə dair sənədlər, s.18

qətiyyətsizliyi, müxalifətin həddən artıq radikal mövqe tutması Qarabağ düyününü bir az da bərkitdi.

I fəslin "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində ilk addımlar" (1.3) adlanan üçüncü yarımfəslində münaqişənin nizamlanması istiqamətində görülən ilk tədbirlərdən bəhs edilir. 1991-ci ilin sentyabr ayında Rusiya prezidenti B.Yeltsin, Qazaxstan prezidenti Nazarbayevlə birgə Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsində vasitəçi rolunu öz üzərlərinə götürərək Rusiyanın Jeleznovodsk şəhərində tərəflərin qısamüddətli sülh bağlamasına nail oldular.

Bu dövrdə Azərbaycanda yaranan ictimai - siyasi, iqtisadi, hərbi, mənəvi, hakimiyyət böhranı, ordunun dağınıqlığı, vahid komandanlığın olmamağı, kiçik hərbi qrupların, özünü müdafiə dəstələrinin kortəbii fəaliyyəti, parlamentlə prezident arasında fikir və iş birliyinin olmaması, iqtidar - müxalifət qarşıdurması əsas səbəblərdən biri olan hakimiyyət uğrunda mübarizə Xocalı faciəsinə gətirib çıxartdı. 1992-ci il fevralın 26-da baş verən Xocalı qırğını tarixdə türklər tərəfindən genosidə məruz qalma haqqında hay-küy salan ermənilərin Azərbaycan xalqına qarşı ən qatı cinayəti oldu. 613 nəfər qətlə yetirilmiş, 1275 nəfər girov götürülmüş, 150 nəfərin taleyi naməlumdur. Faciədən sonra, 1992-ci il martın 2-də Azərbaycan BMT- nin üzvliyinə qəbul edilmiş və BMT- nin 46 - cı (3 mart 1992-ci il) sessiyasında dünya dövlətlərinə bu barədə məlumat vermişdi. Məhz Xocalı faciəsindən sonra, Dağlıq Qarabağ haqqında əsl həqiqət ortaya çıxdı. Bu münaqişə artıq beynəlxalq miqyas aldı.

1992-ci ilin martın 17-20-də BMT-nin Baş katibi Butros Qalinin xüsusi elçisi Sayrus Vensin, martın 19-23-də Yan Kubiş başda olmaqla ATƏM-in nümayəndə heyətinin, ATƏM-in Nazirlər Şurasının sədri, Çexiya Respublikasının Xarici İşlər Naziri İrji Dinstbirin bölgəyə səfər etdilər. Lakin münaqişənin beynəlxalq miqyasa çıxması onun həllini sürətləndirmədi. Çünki münaqişəyə dair beynəlxalq təşkilatların və onların arxasında duran nüfuzlu dövlətlərin mənafeyi toqquşur, bu dövlətlərin arasında ziddiyyətlər onun real həllinə mane olurdu. ABŞ, İngiltərə, Fransa kimi dövlətlər Ermənistanın Azərbaycanla münaqişəsinə kəskin reaksiya vermir və onun cəzalandırması üçün heç bir tədbir görmürdü. Əksinə, Azərbaycanın sərvətlərindən istifadə etmək, faydalanmaq baxımından Azərbaycanın ABŞ və Qərb dövlətlərindən asılı düşməsi bu dövlətlərinin mənafeyinə uyğun gəlirdi. Üstəlik, Ermənistanın Dağlıq Qarabağı işğal etməsinə baxmayaraq, müharibənin ilk günlərindən ABŞ və Qərb

dövlətləri, həmçinin onlardan asılı olan beynəlxalq təşkilatlar münaqişənin sülh yolu ilə nizamlanmasına üstünlük verdilər. Rusiyanın mövqeyinə gəldikdə isə qeyd etmək lazımdır ki, bu dövrdə Rusiya Azərbaycanda öz təsirini nəinki saxlamaq, həmçinin Azərbaycanın MDB-yə daxil olmasını istəyirdi. Dağlıq Qarabağ "düyünün" açarı məhz Rusiyanın əlində idi. Beləliklə, Azərbaycan münaqişə haqqında beynəlxalq ictimaiyyətdə müəyyən rəy yarada bilsə də, dünya dövlətlərinin, beynəlxalq təşkilatların münaqişənin həllində əməli tədbirlər görməsinə nail ola bilmədi. Üstəlik, dövlətin daxilində gedən böhran daha da dərinləşmişdi. Müxalifətlə iqtidar nümayəndələrinin mübarizəsi daha da kəskinləşdi. Böhranın son həddə çatdığını görən Xalq Cəbhəsi hökuməti ümumimilli lider Heydər Əliyevə müraciət edərək, ondan kömək istəyir. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikasının Parlamentinin sədri vəzifəsinə seçildi. Dövlətdə anarxiya və xaosun hökm sürdüyü bir vaxtda parlament iyun 25 - də Heydər Əliyevə prezident səlahiyyətlərini həvalə etdi. Heydər Əliyev təcili olaraq məktubla BMT TŞ – na müraciət etdi və işğalçı Ermənistanın dünya birliyi qarşısında götürdüyü öhdəlikləri yerinə yetirmədiyini bildirərək, Azərbaycan torpaqlarını azad etmək üçün qətiyyətli tədbirlər görməyə çağırdı. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışında sonra ölkədə sabitlik yarandı.

1994-cü il mayın 12 -dən etibarən münaqişə edən tərəflər arasında atəşkəs haqqında saziş imzalansa da, münaqişə qısa müddət ərzində həll olunmadı. Əksinə, münaqişə özünün yeni mərhələsinə daxil oldu ki, bu mərhələdə də onun tənzimlənməsi beynəlxalq təşkilatların fəaliyyətindən asılı oldu.

Dissertasiyanın II fəsli **"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar diplomatik danışıqlarda beynəlxalq təşkilatların yeri və iştirakı"** adlanır. İkinci fəslin birinci yarımfəslində "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin məhəlli və beynəlxalq xüsusiyyətləri" (2.1) araşdırılmışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin xarakterinə gəldikdə, qeyd etmək lazımdır ki, münaqişə qeyri-beynəlxalq münaqişə kimi (bir dövlətin daxilində baş verən) başlamışdır. 1991-ci ilin sonunda SSRİ-nin süqutundan sonra, münaqişə transformasiyaya uğramışdı. Çünki yeni yaranmış müstəqil Ermənistan Respubilkası artıq açıq şəkildə "Dağlıq Qarabağın erməni əhalisinin maraqlarını müdafiə etmək" məqsədilə müstəqil Azərbaycan Respublikasının ərazisinə silahlı hücum etdi. Bundan sonra münaqişə qeyri-beynəlxalq münaqişədən beynəlxalq münaqişəyə çevrildi. Bu

yarımfəsildə həmçinin, aşağıdakı nəticələrə gəlinmişdir:

1) Dövlətlərin ərazi bütövlüyü prinsipi beynəlxalq hüququn fundamental norması olmaq etibarilə BMT tərəfindən qorunur və müdafiə edilir.

2) Dövlətlərin ərazi bütövlüyü norması ilə bağlı olan "uti possidetis juris" prinsipi də müstəqilik qazanmış dövlətlərin əvvəlki sərhədləri çərçivəsində mövcudluğunu nəzərdə tutur.

3) Öz müqəddəratını təyin etmə prinsipi beynəxalq hüquqda heç də ayrılma demək deyildir və bu müstəqilik formasında ola bilməz. Müstəqil dövlətin ərazisində yaşayan milli azlıqların belə hüquqları yoxdur. Həmçinin xalqların öz müqəddəratını təyin etməsi ərazi bütövlük prinsipini poza bilməz.

4) Uti possidetis prinsipinə görə Azərbaycan qanuni əsaslarla öz sərhədləri çərçivəsində öz müstəqililyini elan etmişdir (Sovet dövründə müəyyən edilmiş sərhədlər çərçivəsində).

5) Dağlıq Qarabağ ərazisi Azərbaycan Respublikasının sərhədləri daxilində olmuşdur.

6) Azərbaycan Dağlıq Qarabağ ərazsinin onun tərkibindən çıxmasına razılıq verməmişdir və Azərbaycanın ərazisi beynəlxalq birlik tərəfindən tanınmışdır.

7) Dağlıq Qarabağın istər Ermənistanla birləşməsi, istərsə də müstəqil olması heç bir dövlət tərəfindən tanınmayıb.

8) Ermənistanın Dağlıq Qarabağdakı fəaliyyəti uti possidetis prinsipinin kobud şəkildə pozulmasıdır.

9) Dağlıq Qarabağın erməni əhalisi beynəlxalq hüququn prinsiplərindən biri olan öz müqəddəratını təyin etmə prinsipindən Azərbaycan Respublikasının sərhədləri çərçivəsində istifadə edə bilər. Çünki, beynəlxalq hüquqda tətbiq olunan ayrılma hüququ yoxdur.

10) Azərbaycan müstəqilik əldə etdikdən sonra, Ermənistanın Dağlıq Qarabağdakı "fəaliyyəti" separatçı fəaliyyətdir.

11) Ermənistanın Azərbaycana qarşı silahlı qüvvə tətbiq etməsi dövlətlərin ərazi bütövlüyünün fundamental normasının pozulması, həmçinin, silahlı qüvvənin tətbiq edilməsini qadağan edən beynəlxalq hüquqi prinsiplərin pozulmasıdır.

Bu fəslin ikinci yarımfəsli "Heydər Əliyevin xarici siyasət kursu beynəlxalq təşkilatlarla əməkdaşlığın strategiyasıdır" (2.2) adlanır. Bu yarımfəsildə göstərilmişdir ki, Azərbaycan Respublikasının ümummilli lideri H.Əliyev tərəfindən təməli qoyulmuş balanslaşdırılmış xarici siyasət ilk növbədə Azərbaycan ərazisinin dünyanın güclü dövlətləri tərəfindən

geosiyasi rəqabət meydanına çevrilməməsinin qarşısını almaq məqsədi daşımış və buna yol verilməmişdir. Həmçinin Azərbaycana qarşı "ikili standart" yanaşmalarının yolverilməzliyi məsələsi fikri də ilk dəfə H.Əliyev tərəfindən səsləndirilmişdir. Azərbaycan Respublikasının özünəməxsus xüsusiyyətləri ilə seçilən xarici siyasətini ümummilli lider H.Əliyev aşağıdakı şəkildə ifadə etmişdir: "….bizim xarici siyasətimiz, sülhsevən siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda respublikanın suverenliyini, müstəqililyini və ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq"[1].

Azərbaycanın xarici siyasət kursunun formalaşması prosesi respublikada müstəqil dövlət quruculuğu prosesi ilə bərabər getmişdir. İlk andan Azərbaycanın xarici siyasətinin təməl prinsiplərinin əsasında dünya dövlətləri ilə bərabərhüquqlu əlaqələr, "ikili standartlara" qarşı mübarizə, milli mənafelərin qorunması məsələləri durmuşdur. Azərbaycan istər qonşu, istərsə də digər ölkələrlə həm ikitərəfli, həm də çox tərəfli münasibətlər qurur. Bu məqsədlə Azərbaycan müxtəlif layihələrdə fəal iştirak edir və xarici sərmayələrin ölkəyə cəlb edilməsində maraqlıdır. Azərbaycan Respublikasının xarici siyasəti Azərbaycanın milli mənafeyinə və milli maraqlarına xidmət edir və bu da Azərbaycanın ümummilli lideri H.Əliyevin əvəzsiz xidmətləri ilə bağlıdır.

Hal-hazırda Azərbaycanın xarici siyasətində Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin prioritet kimi irəli sürdüyü məqsədlər sırasında aşağıdakıları xüsusilə qeyd etmək lazımdır:

- Ermənistanın dünya miqyasında təcavüzkar dövlət kimi tanınmasına nail olmaq və Azərbaycanın ərazi bütövlüyünü təmin etmək;
- dünya siyasətinin istiqamətləndirən iri dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək;
- beynəlxalq ictimaiyyətdə respublikamızda həyata keçirilən mütərəqqi ruhlu iqtisadi və demokratik islahatlar barədə dolğun təsəvvür yaratmaq;
- xaricdə güclü diaspor və lobbi formalaşdırmaq;[2].

II fəslin üçüncü yarımfəsli "Münaqişəsinin tənzimlənməsi üçün Azərbaycanın beynəlxalq təşkilatlarda iştirakının zəruriliyi" (2.3) adlanır. Burada Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üçün Azərbaycanın

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 1-ci kitab. Bakı: Azərnəşr, 1997, s.205

[2] Məmmədov N. Heydər Əliyevin xarici siyasət konsepsiyası uğurla bəhrələrini verir. "Azərbaycan" qəz., Bakı, 2011, 14 aprel

beynəlxalq təşkilatlarda iştirakının zəruriliyi təhlil edlir. Azərbaycan çalışır ki, beynəlxalq təşkilatlar və beynəlxalq hüquq sistemində və onların vasitəsilə müasir beynəlxalq münasibətlər sistemində müstəqilliyini daha da möhkəmlətsin.

Azərbaycan beynəlxalq və regional təşkilatların - BMT, ATƏT, Avropa Birliyi, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və s. vasitəsilə Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etməyə çalışır.

Hər hansı bir münaqişənin beynəlxalq hüququn normalarına uyğun həll edilməsinin təminatçısı olan bu beynəlxalq və regional təşkilartlarla əməkdaşlıq etmək Azərbaycan üçün zəruridir. Çünki Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq təşkilatlar tərəfindən hüquqi təminat Azərbaycan üçün olduqca vacibdir. Bundan əlavə bu münaqişənin həlli zamanı beynəlxalq ictimai rəyin müsbət və əsaslı şəkildə Azərbaycanın xeyrinə formalaşması üçün bu təşkilatlarda iştirak mühüm əhəmiyyət kəsb edir. Bu təşkilatlarda iştirak nəticəsində Azərbaycan Respublikası onların potensial imkanlarından geniş istifadə edə bilər. Müstəqil dövlət qurmuş Azərbaycan üçün qarşısına çıxan bu problemin-münaqişənin həll edilməsi respublikanın xarici siyasət fəaliyyətinin aparıcı istiqamətlərindən biridir. Bu münaqişə Cənubi Qafqazda ən uzunmüddətli və mürəkkəb münaqişə hesab edilə bilər. Tədqiqat işində göstərilir ki, BMT, ATƏT və münaqişənin tənzimlənməsi və həllində maraqlı olan digər təşkilatların münaqişəni sülh yolu ilə həll etmək istəməsi əlbəttə ki, müsbət və proqressiv bir haldır. Lakin bu təşkilatlar ilk növbədə çalışmalıdırlar ki, münaqişə beynəlxalq hüququn normalarına uyğun həll edilsin. Yalnız bu halda münaqişənin ədalətlə həll olunacağını gözləmək olar.

Dissertasiyanın səkkiz yarımfəsildən ibarət olan və **"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi beynəlxaq və regional təşkilatlarda"** adlı üçüncü fəslinin birinci yarımfəslində "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində BMT-nin iştirakı"(3.1) işiqlandırılmışdır. 1993-cü il aprelin 2-də Ermənistan qoşunları Azərbaycanın Kəlbəcər rayonunu işğal etdikdən sonra, Təhlükəsizlik Şurasının Sədri 1993-cü il aprelin 6-da növbəti bəyanatla çıxış edərək, yerli erməni qüvvələrinin Azərbaycan Respublikasının

Kəlbəcər rayonuna müdaxiləsindən ciddi narahat olduğunu bildirdi[1]. Nəhayət, aprelin 30-da BMT-nin Təlükəsizlik Şurası 822 №li qətnaməni qəbul etdi[2] (3205 saylı iclas).

Bu qətnamədə də, bəyanatda səslənilən fikirlərdə olduğu kimi yerli ermənilərin təcavüzü pislənirdi, beləliklə, əslində BMT-nin əli ilə «yerli ermənilər» anlayışı siyasi məzmun kəsb etdi. Qətnamə beynəlxalq sərhədlərin toxnulmazlığını, ərazi əldə etmək üçün qüvvə tətbiq etməyin yolverilməzliyini təsdiq etdi, atəşin biryolluq dayandırılması məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal dayandırılmasını və bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın son vaxtlar işğal edilmiş başqa rayonlarından dərhal çıxarılmasını tələb etdi. Lakin kimin işğalçı olduğu göstərilmədi. Münaqişəni dinc yolla həll etmək üçün ATƏM-in Minsk Qrupu çərçivəsində danışıqları dərhal bərpa etmək məsləhət görülür və ATƏM-in sədri, həmçinin ATƏM-in Minsk Qrupunun sədrindən məsləhətləşmə keçirib bölgədəki vəziyyətə qiymət verilməsi xahiş edilirdi. Bununla da, BMT-nin Təhlükəsizlik Şurası münaqişəni dayandırmaqdansa, yalnız məsləhətlər verir və məsuliyyəti tamamilə ATƏM-in və ATƏM-in Minsk Qrupunun üzərinə ataraq bir qurum kimi özünü problemin həllindən uzaqlaşdırdı. İndiyə qədər BMT Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin daxili yaxud dövlətlərarası münaqişə olduğu haqqında qəti qərar qəbul etməmişdir. Hətta qəbul edilmiş qətnamələrdə (№822, №853, №874, №884) münaqişənin Ermənistan və Azərbaycan arasında olması konkret şəkildə göstərilməmişdir ki, bu da münaqişə başladığı gündən beynəlxalq aləmdə ona düzgün siyasi qiymət verməyə mane olmuşdur.

Bu fəslin "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində NATO-nun mövqeyi" (2.2) adlı ikinci yarımfəslində münaqişənin tənzimlənməsi istiqamətində NATO-nun mövqeyinə qiymət verilmişdir. Yarımfəsildə göstərilir ki, Azərbaycanın NATO ilə münasibətləri 1992-ci ilin fevral ayından formalaşmağa başlanmış, lakin Azərbaycanın NATO ilə yüksək səviyyədə əməkdaşlıq prinsipinin təməli 1994-cü ildə qoyulmuşdu. 1994-cü il yanvarın 10-11-də NATO ölkələri rəhbərlərinin Brüsseldə keçirilən görüşündə ilk dəfə olaraq, ABŞ prezidenti

---

[1] Спорные границы на Кавказе / Под ред. Бруно Коппитерса. М.: Весь Мир, 1996, с.121

[2] http://www.un.org/ru/sc/documents/resolutions /1993.shtm BMT TŞ-nin qətnamələri, 822№-li (30 aprel,1993-cü il) Qətnamə,7-ci preambula, 3205 saylı iclas

B.Klinton hökuməti tərəfindən yaradılan "Sülh Naminə Tərəfdaşlıq" (SNT) proqramı müzakirə edildi və qəbul olundu[1]. Bu proqramla NATO ölkələri MDB və Avropada bitərəf mövqedə duran dövlətlərə əməkdaşlıq təklif etdi. "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmaq Azərbaycan üçün çox vacib idi, bununla ölkəmiz həm dünyanın kollektiv təhlükəsizlik sisteminə qoşulur, həm də regionda vəziyyəti stabilləşdirmək müharibəni dayandırmaq üçün NATO-nun timsalında nüfuzlu bir qüvvənin köməyini qazanmış olurdu. 1994-2005-ci illərdə NATO ilə münasibətlər xeyli möhkəmlənmiş, xüsusilə Azərbaycan SNT proqramına daxil olduqdan sonra münasibətlər daha da inkişaf etmişdi. NATO bu dövrdə Azərbaycanla əlaqələrə üstünlük versə də, Azərbaycan NATO-ya daxil olmadı. NATO-nun sammitlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarına toxunulsa da, münaqişənin NATO-nun iştirakı ilə tənzimlənməsi baş tutmadı. Bu, Azərbaycan ictimaiyyətində yaranmış "NATO Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll edə bilər" ümidini puç etdi.

Dissertasiya işinin III fəslinin "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında ATƏT-in Minsk Qrupunun fəaliyyəti" (3.3) adlı üçüncü yarımfəsildə ATƏT-in münaqişə ilə bağlı fəaliyyəti təhlil edilmişdir. Dissertasiyanın bu yarımfəslində göstərilir ki, 1992-ci il yanvarın 20-də Azərbaycan ATƏM-in üzvülüyünə qəbul edilir, iyul ayının 8-də Helsinkidə keçirilən sammitdə onun sənədlərini imzalayır[2]. Bu ildən bu münaqişəni həll etmək üçün ATƏT fəaliyyətə başlayır və beləliklə, münaqişə beynəlxalq əhəmiyyət kəsb edir. 1994-cü il dekabrın 5-6-da Budapeşt, 1996-cı il dekabrın 2-3-də Lissabon zirvə görüşlərindən sonra, Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasında irəliyə doğru addımlar atılsa da, Minsk qrupunun qarşılıqlı güzəşt prinsipini üstün tutması, ikili standartlar mövqeyindən çıxış etməsi, həmçinin ATƏT-in beynəlxalq hüquq normalarını pozan ölkələrə qarşı sanksiya tətbiq edə bilməməsi münaqişənin tənzimlənməsi prosesində ən böyük qüsurlardan birinə cevrildi. Minsk Qrupu 1997-ci il iyunun 1-də "paket həll planı", sentyabrın 23-24-də isə iyulun 18-də qəbul edilmiş "mərhələli həll" variantını, 1998-ci il noyabrın 8-10-da "ümumi dövlət" adlanan növbəti və

---

[1] Azərbaycan Respublikası Milli Məclisinin Arxivi:F.2941, siy.1, iş 899, v. 89 – 180

[2] http://lib.aliyevheritage.org/az/5412138.html, Azərbaycan-ATƏT. Qısa oçerk.].

aydın olmayan həll planını təklif etdilər[1]. Azərbaycan tərəfi "mərhələli həll" variantını qəbul etsə də, Ermənistan bu variantı əvvəlcə qəbul etdi sonradan isə siyasi oyunlar və fitnələr quraraq təkliflərin heç birini qəbul etmədi.Nəhayət, 2007-ci il noyabrın 29-da İspaniyanın paytaxtı Madriddə ATƏT-in üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının iclası zamanı Azərbaycanın və Ermənistanın Xarici İşlər Nazirlərinə "Minsk Qrupu"nun həmsədrləri tərəfindən "Madrid prinsipləri" adlanan layihə təqdim olunmuş və bu vaxtdan etibarən Qarabağ danışıqları bu prinsiplər ətrafında aparılır. Moskva bəyannaməsində (2 noyabr 2008-ci ildə) də öz əksini tapan Madrid prinsiplərindəki bəzi məsələlər Azərbaycan üçün qəbul edilməzdir.

Əgər ATƏT Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktını rəsmi şəkildə etiraf etsə, buna qarşı ciddi tədbir görsə, şübhəsiz ki, münaqişənin həlli istiqamətində real və müsbət nəticə əldə etmək mümkündür.

Tədqiqatın III fəslinin "Avropa Şurası və Avropa İttifaqında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müzakirəsi" adlı (3.4) dördüncü yarımfəslində göstərilir ki,1992-ci il yanvarın 24-də Azərbaycan Respublikası "xüsusi dəvət edilmiş qonaq" statusunu almaq üçün Avropa Şurasına müraciət etmişdi. Bundan sonra,1996-cı il martın 17-18-də Azərbaycan Avropa Şurasının yardımçı və məsləhətçi orqanı olan Venesiya Komissiyasına (Qanun vasitəsi ilə Demokratiya uğrunda Avropa Komissiyası) üzv qəbul edildi. Bu hadisədən az sonra 1996-cı il iyunun 28-də Azərbaycana Avropa Şurası yanında "xüsusi dəvət eedilmiş qonaq" statusu verildi[2]. 2001-ci il yanvarın 17-də Avropa Şurasının Nazirlər Komitəsinin iclasında Azərbaycan Respublikasının bu təşkilata tamhüquqlu üzv qəbul edilməsi haqqında qərar qəbul edildi[3]. 2001-ci il yanvarın 25-də Strasburqda bu hadisə ilə bağlı rəsmi mərasim keçirildi və bu mərasimdə Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etdi. Burada çıxış edən Azərbaycan Respublikasının Prezidenti H.Əliyev Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzvlüyünü Avropanın yalnız mədəni tarixi baxımdan deyil, siyasi baxımdan da tamlaşması demək olduğnu qeyd etmişdir. O, xüsusilə

---

[1] Azərbaycan Respublikası Milli Məclisinin Arxivi:F.2941, siy.1, iş 899, v. 134-147

[2] Yenə orada: Beynəlxalq münasibətlər şöbəsi, Sədrin görüşləri, 8 sentyabr – 2 dekabr, 2000-ci il, 125 vərəq, v.103 – 111

[3] Азербайджан полноправный член Совета Европы. Газ. «Зеркало», 2001, 18 января

Azərbaycanın Avropa Şurası kimi nüfuzlu təşkilat vasitəsilə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü faktını bütün beynəlxalq aləmə çatdırmaq imkanı əldə etdiyini vurğuladı. Ümumiyyətlə, Avropa Şurasının münaqişə ilə bağlı verdiyi bütün qətnamə və tövsiyələrində, Dağlıq Qarabağ problemi ətrafında apardığı müzakirələrdə Ermənistanın Azərbaycana qarşı təcavüzü pislənir, işğal edilmiş ərazilərin qaytarılması, qaçqın və köçkünlərin geri dönməsi məsələləri dəfələrlə vurğulanmışdır. Azərbaycanın Avropa Şurasındakı fəaliyyəti, münaqişə haqqında tam obyektiv rəy yarada bilməsi, Avropa Şurasının mövqeyinə şübhəsiz ki, öz təsirini göstərə bilmişdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə digər Avropa təşkilatı-Avropa İttifaqı tərəfindən də münasibət bildirilmişdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ilk dəfə olaraq Avropa İttifaqı 1992-ci il mayın 22-də bəyanat verdi.Bu bəyanatda birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağ regionunuda döyüşlərin intensivləşməsindən narahatlıq bildirərək, bunu qəti şəkildə pisləyirdilər. İnsan tələfatından təəssüflənən Avropa İttifaqı bu tələfatın kim tərəfindən törədildiyini göstərmirdi. Lakin Avropa İttifaqı ərazi bütövlüyünün pozulmasını, mülki əhalinin daimi yaşayış yerlərindən qovulmasını pisləsə də, sənəddə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü pozduğu və əhalisini öz torpaqlarından qovduğu göstərilmirdi. Avropa İttifaqının qəbul etdiyi bəyanatlar bir-birindən bir o qədər də fərqlənmirdi. Bəyanatlarda Ermənistanın adı işğalçı kimi çəkilmir,münaqişəni həll etmək üçün konkret yollar göstərilmirdi. 2000-ci ilin aprelində Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsi yarandı[1]. Bu tədbirlər Avropa İttifaqı ilə Azərbaysan arasında əlaqələri daha da genişləndirdi. 2001-ci il mayın 22-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Avropa Parlamentinin bir qrup deputatı ilə görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Avropa İttifaqının rolu haqqında ətraflı danışmış və söhbətdə Dağlıq Qarabağ məsələsinin həllində Avropa İttifaqının köməyinin Azərbaycanın ərazi bütövlüyünün bərpası və qaçqın, məcburi köçkünlərin öz yerlərinə qayıtmasına nail olunmasından ibarət ola biləcəyini bildirmişdi. Avropa İttifaqında bu günə qədər qəbul olunan ən ədalətli təklif Avropa Parlamentinin deputatı Per Qartonnun təklifidir. 2004-cü il yanvarın 27-də Avropa Parlamentinin deputatı Per Qartonnun

---

[1] Azərbaycan Respublikası Milli Məclisinin Arxivi: Beynəlxalq münasibətlər şöbəsi, Sədrin görüşləri, 3 iyun-17 dekabr, 2002- ci il, 549 vərəq, v.366-369

hazırladığı təklifi Avropa Parlamentinin Xarici məsələlər, təhlükəsizlik və müdafiə komitəsi səsçoxluğu ilə qəbul etdi. Bu təklif Ermənistanın işğal etdiyi 5 Azərbaycan rayonunun-Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarını işğaldan azad etməsi əvəzində Bakı-Naxçıvan-Yerevan dəmir yolunun açılmasını nəzərdə tuturdu[1]. Lakin Ermənistan bu təklifi qəbul etmədi.Bu hadisə bir daha Ermənistanın işğalçı simasını göstərdi. Umumiyyətlə, qeyd etmək lazımdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə Avropa Birliyi bu münaqişənin sülh yolu ilə həllinə tərəfdardır.

"Azərbaycanın Beynəlxalq Parlament Təşkilatları və xarici ölkələrin parlamentləri ilə əməkdaşlığı çərçivəsində münaqişənin tənzimlənməsi istiqamətləri" adlı (3.5) beşinci yarımfəsildə beynəlxalq parlament təşkilatları ilə də əməkdaşlıq cərçivəsində münaqişənin tənzimlənməsinin mühüm yer tutduğu göstərilir. 1996-cı ildən etibarən Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edən dövlətlərin parlamentlərarası işci qrupları yaradıldı. İlk növbədə 1996-cı il noyabın 22-də Azərbaycan Respublikası ilə Türkiyə, Rusiya, İran respublikaları arasında parlamentlərarası əlaqələr üzrə işçi qrupları yaradıldı[2]. 1996-1999-cu illər ərzində Azərbaycan Respublikasının Milli Məclisi dünyanın bir çox parlamentləri ilə tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş imzalamışdı. Münaqişənin həll edilməsində ABŞ, bir çox nüfuzlu Avropa dövlətləri də maraqlı olduqları üçün bu dövlətlərin parlamentləri ilə də əlaqələr yaradılmışdı.

Milli Məclisdə keçirilən görüşlərdə Ermənistanın Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ və ətraf rayonları işğal altında saxlamasının bütün bölgədə sülhün və təhlükəsizliyin təmin edilməsi işinə əngəl törətdiyi göstərilmişdir. 2000-2005- ci illərdə Azərbaycan Respublikasının Milli Məclisində parlamentlərarası əlaqələr daha da genişlənmiş, bu çərçivədə münaqişənin müzakirəsi və tənzimlənməsinə daha çox yer verilmişdi.

Dissertasiyanın III fəslinin "Müstəqil Dövlətlər Birliyinin münaqişəyə münasibətdə mövqeyi" adlanan (3.6) altıncı yarımfəslində ümumilikdə, Azərbaycanın MDB-nin zirvə görüşləri çərçivəsində Ermənistanla apardığı danışıqlar araşdırılmış və münaqişənin sülh yolu ilə nizamlanması üçün

---

[1] Azərbaycan Respublikası Milli Məclisinin Arxivi: Beynəlxalq münasibətlər şöbəsi, Sədrin görüşləri, 10 yanvar-25 may, 2004-cü il, 453 vərəq, v.130-140
[2] Yenə orada: F. 2941 siy. 1, iş № 395, № 189-IQ-200-IQ, noyabr 1996-cı il 344 vərəq, v.5-22-55

bu görüşlər və danışıqlar əhəmiyyətli hesab edilə bilər. 1993-cü il sentyabrın 24-də Azərbaycan Respublikası MDB-yə daxil oldu. 1995-ci ildə Azərbaycan MDB-nin sərhəd qoşunları Komandanlarının Şurasının növbəti iclasında Azərbaycan-İran sərhədinin 132 km-nin ermənilər tərəfindən işğal olunduğunu bəyan etdi[1]. Azərbaycanın bu bəyanatını Gürcüstan, Ukrayna, Qazaxıstan və Türkmənistan da dəstəklədilər. Rusiya sərhədçiləri Ermənistanın işğal etdiyi bu ərazini bir şərtlə - bu hissənin Rusiyanın nəzarəti altına keçəcəyi təqdirdə azad etməyi təklif etdilər. Azərbaycan Rusiyanın bu təklifini rədd etdi. Lakin təklifin bu şəkildə səslənməsi problemin həllinin məhz Rusiyanın əlində olması demək idi.

2003-2005-ci illərdə MDB ölkələri ilə Azərbaycanın əlaqələri daha da genişləndi.

Dissertasiyada göstərilir ki, Azərbaycanın MDB-də iştirakının ilk növbədə iqtisadi əhəmiyyəti vardır. 70 il ərzində SSRİ-nin tərkibində olan Azərbaycan üçün keçmiş SSRİ ölkələri ilə əlaqələrin kəsilməsi Azərbaycan iqtisadiyyatına böyük zərbə vura bilərdi. Azərbaycanın MDB-də iştirakı keçmiş SSRİ ölkələri ilə istər MDB çərçivəsində, istərsə də ikitərəfli əlaqələrin qurulması, iqtisadi əməkdaşlığın genişlənməsi Azərbaycan iqtisadiyyatının daha da inkişaf etdirilməsinə gətirib çıxarır. Bu da öz növbəsində sosial və siyasi problemlərin həllini asanlaşdırır. Dünyada qloballaşma və inteqrasiyanın inkişafı, ümumi bazarların formalaşması, neft və qaz kəmərlərinin, yolların çəkilməsi və bütövlükdə Azərbaycanın bu proseslərə qoşulması onun iqtisadi cəhətdən güclənməsinə gətirib çıxaracaq. Bu, yaxın gələcəkdə Azərbaycanın itirilmiş ərazilərinin qaytarılmasına və Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına təkan verə bilər.

Üçüncü fəslin 7-ci yarımfəsli "İslam Konfransı Təşkilatı (İKT) və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi"(3.7) adlanır. Dissertasiyada qeyd edilir ki, beynəlxalq təşkilatların içərisində İslam Konfransı Təşkilatı (İKT) yeganə təşkilatdır ki, öz qətnamələrində Ermənistan-Azərbaycan münaqişəsini birmənalı şəkildə Ermənistanın Azərbaycana qarşı təcavüzü kimi pisləmişdir. 1993-cü il aprelin 25-29 Pakistan İslam Respublikasının Kəraçi şəhərində İKT-nin XXI Konfransında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə edildi və bu haqda qətnamə olundu ki, bu da BMT-nin Kəlbəcərin

---

[1] Аббасбейли А.Н., Гасанов А.М. Азербайджан в системе международных и региональных организаций. Баку: Азернешр, 1999, с. 224

işğalı ilə bağlı verdiyi 822№-li qətnaməni həm zaman etibarilə qabaqladı, həm də məzmun etibarilə daha kəsərli və obyektiv idi. Qəbul edilmiş qətnamədə döstərilirdi:

"1. İKT Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzünü kəskin şəkildə pisləyir;

2. Erməni qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən təcili çıxarılmasına və Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət bəsləməyi ciddi sürətdə tələb edir;

3. Dağlıq Qarabağ məsələsinin dövlətlərin ərazi bütövlüyünün və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərin toxunulmazlığı prinsipinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həll etməyə çağırır və s."[1].

1994-cü ildə iyul ayında Azərbaycan Respublikasının Prezidenti H.Əliyev Səudiyyə Ərəbistanına rəsmi səfər etdi. Bu səfər çərçivəsində o, Səudiyyə Ərəbistanının kralı Fəhd bin Əbdüləziz əl Səudla görüşdü, Kəbəyə ümrə ziyarəti etdi ki, bu da münasibətlərin gələcək inkişafına böyük təkan verdi[2].

1994-cü ilin noyabrında İKT-nın Baş Katibi Həmid əl Qabidin Azərbaycana səfəri və respublika rəhbərliyi ilə görüşləri bu münasibətlərin davamı oldu[3]. O, Ermənistanın Azərbaycana təcavüzünü pislədi. 1994-cü il dekabrın 13-15-də Mərakeşin Kasablanka şəhərində İKT-nin dövlət və hökumət başçılarının VII zirvə görüşü oldu. Görüş İKT-nin 25 illik yubileyinə təsadüf etdi. Bu görüşdə Azərbaycan Respublikasının Prezidenti H.Əliyev iştirak etdi. VII zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsi üzrə qətnamə qəbul edildi ki, bu qətnamədə də Azərbaycanın mənafeyi müdafiə olunur, Ermənistan Respublikasının Azərbaycana təcavüzü pislənirdi[4].

Yarımfəsildə göstərilir ki, bu illər ərzində İKT Azərbaycana nəinki siyasi dəstək vermiş, həmçinin iqtisadi və humanitar yardım da göstərmişdi

---

[1] "Xalq qəzeti" qəz., Bakı,1993, 7 may

[2] Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Beynəlxalq Təşkilatlarla əlaqələr idarəsinin cari arxivi (İslam Konfransı Təşkilatı 1994-2000-ci illər) 1994-cü il

[3] Yenə orada.

[4] Azərbaycan İslam Konfransı Təşkilatı sıralarında (Islam Konfransı Təşkilatının Kasablanka (1994-cü il), Tehran (1997 – ci il), Məkkə (2005-ci il) və Dakar (2008-ci il) Zirvə görüşlərinin və Xarici İşlər Nazirləri Şurasının 33-cü Bakı sessiyasının materialları əsasında). Bakı: Apostrof, 2008, s.19-20, 51-53

ki, bu da Azərbaycan üçün çox vacibdir. Bu günə qədər olan bütün konfranslarında İKT Azərbaycanı bu münaqişədə haqlı olaraq dəstəkləmiş və münaqişənin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə üstünlük vermişdi. İslam Konfransı Təşkilatı Ermənistan Respublikasını təcavüzkar kimi tanıyan ilk və yeganə beynəlxalq təşkilatdır. Fikrimizcə, Azərbaycan İKT ilə əlaqələrini gələcəkdə daha da inkişaf etdirəcək və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində bu təşkilatın fəaliyyətindən daha da səmərəli istifadə edəcəkdir.

"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində girov götürülmüş, əsir və itkin düşmüş vətəndaşlara qarşı erməni vandalizmi və münaqişə qurbanlarına beynəlxalq humanitar yardım (Beynəlxalq Qızıl Xaç Komitəsinin xətti ilə)"adlı (3.8) səkkizinci yarımfəsildə əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarımızın BQXK-nin xətti ilə azad olunması və bu istiqamətdə görülən tədbirlər öz əksini tapmışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlandığı dövrdən, Azərbaycandan əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarımız olmuşdur. Bu vətəndaşların axtarılması, onların qaytarılması Azərbaycan dövlətinin qarşısında duran vacib məsələlərdən biridir. Bu məqsədlə 1993-cü il yanvarın 13-də Azərbaycan Respublikasının o vaxtkı prezidenti Əbülfəz Elçibəy tərəfindən "Girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının təsis edilməsi haqqında" sərəncam verildi[1]. 1993-cü il fevralın 8-də Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası haqqında Əsasnamə təsdiq edildi[2].

BQXK-si ilə əməkdaşlığın müsbət və Dövlət Komissiyasının razı qalmadığı mənfi cəhətləri olmuşdur. Müsbət hal kimi əsir və girovların azad edilməsi prosesində BQXK-nin iştrakını, düşmən əlində olan şəxslərə baş çəkilməsini, onların müalicəsinə köməklik göstərməsini və s. qeyd etmək olar. Mənfi hallardan biri kimi aşağıdakı faktı misal çəkmək olar. 1993-cü ilin avqust ayında Cenevrədə keçirilən konfransda Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri N.Abbasov münaqişə qurbanlarına həsr olunmuş məruzə ilə çıxış edərkən ona imkan verilməmiş, 10 dəqiqəlik

[1] Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Azərbaycan Respublikası Dövlət Komissiyasının (İşçi Qrupunun) Arxivi: 282№-li sərəncam.
[2] Yenə orada, Komissiyanın materialları; "Respublika" qəz., Bakı, 1993, 8 fevral

limit çərçivəsində ediləcək məruzənin 6-cı dəqiqəsində mikrofon söndürülmüşdü.

Ötən dövr ərzində BQXK ilə dəfələrlə görüşlər keçirilmiş müxtəlif məsələlər müzakirə edilmişdir. 2012-ci il martın 1-nə qədər 4053 nəfər itkin düşmüş şəxs qeydiyyatdadır.1400 nəfər isə əsir və girovluqdan azad edilmiş şəxs kimi dövlət komissiyası tərəfindən qeydiyyata alınmışdır[1].

Dissertasiyada qeyd edilır ki, Azərbaycan zərər çəkmiş tərəf kimi nəinki BQXK, həmçinin BMT və onun vasitəsilə dövlətlər birliyinə müraciət edə bilər, nəhayət, fikrimizcə Haaqadakı Beynəlxalq məhkəməyə müraciət edərək, Ermənistanı beynəlxalq hüququn normalarını pozduğuna görə Beynəlxalq məhkəməyə verə bilər. Cenevrə konvensiyalarına qoşulan Ermənistan əslində beynəlxalq hümanitar hüququn normalarına qeyd-şərtsiz tabe olmalıdır. Azərbaycan, Ermənistan rəhbərliyinin cinayətkar əməllərinin dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar tərəfindən etiraf edilməsinə və onun cəzalandırılmasına nail olmalıdır.

Dissertasiyanın **"Nəticə"** adlanan hissəsində aparılmış tədqiqat işinə yekun vurulmuş, araşdırmalar ümumiləşdirilmişdir. Qeyd olunmuşdur ki, Ermənistanın Azərbaycana təcavüz etdiyi ilk günlərdən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq təşkilatların diqqət mərkəzində olmuşdur. Xalqımızın ümummilli lideri Heydər Əliyev münaqişənin tənzimlənməsini Azərbaycanın xarici siyasətində prioritet məsələ kimi həmişə ön plana çəkmiş, bu işdə beynəlxalq təşkilatların rolunu xüsusilə vurğulamışdı.

1991-2005-ci illər ərzində Azərbaycan bir çox nüfuzlu beynəlxalq və regional təşkilatlarla hərtərəfli əlaqələr qurmuş və Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini bu təşkilatların çərçivəsində sülh yolu ilə həll etməyə çalışmışdır. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev münaqişə ilə bağlı Azərbaycanın mövqeyini qəti şəkildə ifadə edərək demişdir: "Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyildir, olmayıbdır və heç vaxt olmayacaqdır. Dağlıq Qarabağ heç vaxt müstəqil ölkə olmayacaqdır, Azərbaycanın razılığı olmadan bu mümkün deyildir. Azərbaycan isə buna heç vaxt öz razılığını verə bilməz. Dağlıq Qarabağda yaşayan ermənilər və orada yaşayacaq azərbaycanlılar muxtariyyat statusu çərçivəsində yaşamalıdırlar və bu sahədə dünyanın ən qabaqcıl təcrübəsi tətbiq edilməlidir. Bizim prinsipial mövqeyimiz bundan

[1] Səmədov E. Əsir, girov və itkinlər problemi. "Azərbaycan" qəz., Bakı, 2012, 17 mart

ibarətdir və biz bu mövqedən bir addım geri atmayacağıq. Çalışacağıq bütün imkanları- həm siyasi, həm iqtisadi, həm diplomatik, həm başqa imkanları- işə salaraq, bu məsələni tezliklə, ədalətlə, beynəlxalq hüquq normalarına uyğun şəkildə həll edək ki, Azərbaycan vətəndaşları öz doğma torpaqlarına tezliklə qayıda bilsinlər”[1] .

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı işlərində öz əksini tapmışdır:**

1. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığının məqsədləri //“ADPU-nun xəbərləri” (humanitar elmlər seriyası) Bakı, ADPU, 2005, №4, s. 205-208
2. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində BMT-nin iştirakı// Xəbərlər (təbiət, humanitar və pedaqoji-psixoloji elmlər seriyası) Bakı, ADPU, 2008, № 3, s. 129-137
3. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində ATƏT-in Minsk qrupunun fəaliyyəti (1992-1994-cü illər) // Xəbərlər (təbiət, humanitar və pedaqoji-psixoloji elmlər seriyası). Bakı, ADPU, 2008, № 4, s.134-145
4. 1995-1999-cu illərdə ATƏT-in Minsk qrupunun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində mövqeyi // Xəbərlər (təbiət, humanitar və pedaqoji-psixoloji elmlər seriyası).Bakı, ADPU, 2008, № 5, s.80-90
5. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun tənzimlənməsində Minsk qrupunun iştirakı (2000-2005-ci illər) // Xəbərlər (təbiət, humanitar və pedaqoji-psixoloji elmlər seriyası).Bakı, ADPU, 2009 , № 2, s.43-52
6. İslam Konfransı Təşkilatı və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi // Xəbərlər (təbiət, humanitar və pedaqoji-psixoloji elmlər seriyası). Bakı, ADPU, 2009, № 3, s.67-75
7. Azərbaycan Respublikasının xarici siyasətinin əsas prinsipləri və beynəlxalq təşkilatların mövqeyi // Xəbərlər (təbiət, humanitar və pedaqoji-psixoloji elmlər seriyası).Bakı, ADPU, 2009, № 5, s.121-128

---

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dünya azərbaycanlıların həmrəylik günü və yeni il münasibətilə Azərbaycan xalqına təbriki. 31 dekabr 2009. Prezident İlham Əliyev və mədəniyyət (2008- 2013). 2 cilddə. II cild. Bakı, “Şərq-Qərb” nəşriyyat evi, 2013, s.38-41

8. Ermənilərin mənşəyi və tarixinə dair // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, BDU, 2010, № 3, s. 166-172

9. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üçün Azərbaycanın Beynəlxalq təşkilatlarda iştirakının zəruriliyi // Bakı Unversitetinin Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, BDU, 2010, № 4, s. 96-101

10. Osmanlı imperiyası və Cənubi Qafqazda erməni təşkilatlarının fəaliyyəti // "Dirçəliş-XXI əsr". Bakı, Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstititutunun elmi nəşri, 2010, № 149 /150, s. 232-241

11. I Dünya Müharibəsi illərində erməni daşnaklarının fəaliyyəti // Tarix və onun problemləri. Bakı, BDU, 2010, № 2, s. 68-74

12. MDB-nin zirvə görüşlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müzakirəsi (1993-2005-ci illər) // Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri. Fundamental, humanitar və təbiət elməlri seriyası, Gəncə, 2010, № 3, s. 117-122

13. Участие Азербайджана в СНГ и вопрос об урегулировании Армяно-Азербайджанского Нагорно-Карабахского конфликта // Современные проблемы гуманитарных естественных наук. Материалы четвертой международной научно-практической конференции. Москва, Институт стратегических исследований, 8-20 октябрь 2010 г. Т II, с. 79-81

14. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində ATƏT-in Minsk qrupunun rolu //"Dirçəliş-XXI əsr". Bakı, Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstititutunun elmi nəşri, 2011, № 158 /159 , s. 162-171

15. Tarixin tədrisi prosesində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəblərinin öyrədilməsi//"Müəllim hazırlığının müasir problemləri" beynəlxalq elmi konfransın materialları. Bakı, AMİ, 28-29 oktyabr 2011, s. 280-283

16. ATƏT-in Minsk qrupu çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müzakirəsi (2003-2005-ci illər)//Dayanıqlı inkişaf və idarəetmə modelləri: nəzəriyyə və praktika. Beynəlxalq konfransın tezisləri. Lənkəran, Azərbaycan Təhsil Nazirliyi, LDU, 23-25 dekabr 2011, s. 74-75

17. Инициативы Минской группы ОБСЕ по урегулирования Армяно-Азербайджанского Нагорно-Карабахского конфликта // Вестник КазНУ. Серия историческая, Алматы, 2011, № 2 (61), с. 92 -95

18. Azərbaycan-NATO münasibətlərinin yaranması tarixinə dair//Pedaqoji Universitet Xəbərləri. Bakı, ADPU, 2012, № 1, s. 149-154
19. 1918-1920-ci illərdə Yuxarı Qarabağ ərazisində erməni daşnakları tərəfindən azərbaycanlılara qarşı törədilən vandalizm//Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri. Fundamental, humanitar və təbiət elməlri seriyası, Gəncə,2012, № 3, s.100-107
20. Ermənilərin Qafqaza köçürülməsi siyasəti "erməni məsələsi" nin tərkib hissəsi və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin səbəblərindən biri kimi//Pedaqoji Universitet Xəbərləri. Bakı, 2013, № 1, s. 76-81
21. О взаимоотношениях Азербайджана с НАТО (1992-2005-е годы)// Вестник Чувашского университета, Гуманитарные науки, Чебоксары, 2013, № 2, с. 43-46
22. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində Heydər Əliyev fenomeninin rolu//"Müasir təhsilin aktual problemləri" mövzusunda Respublika elmi-praktik konfransının materialları. Bakı, Azərbaycan Respublikası Təhsil Problemləri İnstitututu, 5 may 2013-cü il, s.28-30
23. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində NATO-nun mövqeyi (2000-2005-ci illər)//Pedaqoji Universitet Xəbərləri. Bakı, ADPU, 2013, №2, s.148-154
24. Beynəlxalq Qırmızı Xaç Komitəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində yaranmış əsir, girov və itkinlər probleminin nizamlanmasında iştirakı // "Dirçəliş-XXI əsr". Bakı, Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitittutunun elmi nəşri, 2013, №176/177, s.60-72
25. "Erməni məsələsi"nin yaranmasının ilkin səbəbləri // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, BDU, 2013, № 4, s.105-111
26. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başlanmasının səbəbləri // Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri. Fundamental, humanitar və təbiət elməlri seriyası.Gəncə, 2013, № 3, s.202-210
27. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində ilkin cəhdlər (1992-1994-cü illər) // Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. Bakı, BDU, 2013, №3, s.194-201

28. Ermənistan-Azərbaycan Dağlık Karabağ münakaşasının oluşum tarihine dair//Kafkasiya Ünuversiteler Birliği Uluslararası Ağrı Sosyal Bilimler Kongresi, Ağrı, 25-27 Eylül, 2013, s.707 -713

29. Ermeni terör örgütü Taşnaksütyunun 1918-1920 yıllarında Güney kafkasya ve Yukarı Karabağda yaptığı katliamlar // Turkish Studies. International periodical for the Languages, Literature and history of turkish or turkic. Academic journal. Ankara, Turkey, 2014, Volume 9/1 Winter , s.485-494

30. Ermənistanın Azərbaycana qarşı təcavüzü və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində beynəlxalq təşkilatlarin mövqeyi. Monoqrafiya, Bakı, ADPU-nun nəşriyyatı, 2014, 25ç.v.

31. Азербайджан и Совет Европы (1992-2005 гг.)//Вестник КазНУ. Серия историческая, Алматы, 2014, № 2 (73), с.244-249

32. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hüquqi aspektləri // Pedaqoji Universitet Xəbərləri. Bakı, ADPU, 2014, №1, s.153-159.

33. Xocalı faciəsi Ermənistanın Dağlıq Qarabağı ilhaqı siyasətinin ağır nəticəsi kimi//Pedaqoji Universitet Xəbərləri. Bakı, ADPU, 2014, №2, s.173-178

34. Uluslararası Kuruluşların Dağlık Karabağ Sorununa Bakış Açıları Ve Etkileri //Turkish Studies.International peridical for the Languages, Literature and history of turkish or turkic. Academic journal. Ankara,Turkey, 2014, Volume 9/4 Spring, s.1035-1048

35. Ermenistanın Dağlık Karabağı ilhaqı siyaseti (1988-1994)//Dağlıq Ka-rabağ üzerinə Yazılar. İstanbul, Gündoğan yayınları.Aralık, 2014, s.119-132

36. Sultan II Abdülhemid Dönemi ve sonrasındaki ermeni isyanlarında Rusiyanın rolü ve Kafkasiyadakı faaliyetleri (Osmanlı İmparatorliğu ve Güney Kafkas Ermeni Örgütlerinin faaliyetleri) //Atatürk Kültür, Dil Ve Tarih Yüksek Kurumu. Türk Tarih kurumu Yayınları VIII. Dizi-Sayı, 14. Ermenin Ayaklanmaları sempozyumu (1894-1909). 23 Ocak, 2014, Ankara bildirileri. Ankara, 2015, s.63-77

37. UN and OSCE participation in the regulation of the Armenian and Azerbaijan conflict over Nagorno-Karabakh //American journal of international law. Washington, The American society of international law. april 2015, Vol.109, Number 1, p.122-138

**С.М.Сеидова**

# Участие международных организаций в урегулировании Армяно-Азербайджанского, Нагорно-Карабахского конфликта (1991-2005 гг.)

## РЕЗЮМЕ

Для Азербайджана крайне важно участие в международных и региональных организациях. Так как, оно может содействовать выработке более справедливых подходов к урегулированию армяно-азербайджанского конфликта, тем более, что позиция этих организаций и по проблематике права наций на самоопределение, суверенитета и территориальной целостности практически идентична и созвучна с позицией Азербайджана. Поддержка государствами, входящими в международные организации могла бы способствовать установлению прочного и безопасного мира в регионе. Справедливое урегулирование конфликта возможно лишь при отказе от враждебной политики и агрессивных действий в отношении Азербайджана, освобождении оккупированных азербайджанских территорий со стороны Армении.

Налаживание сотрудничества с международными организациями имеет большое значение для Азербайджана. Это способствовало бы, с одной стороны, быстрой интеграции республики в европейские и трансатлантические структуры безопасности и сотрудничества, а с другой стороны, привело бы, к активизации участия мировых государств в урегулировании армяно-азербайджанского, нагорно-карабахского конфликта. Поэтому это исследование является актуальным.

Диссертация посвящена участию международных организаций в урегулировании армяно-азербайджанского, нагорно-карабахского конфликта в 1991-2005 гг. Работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обоснованы актуальность и новизна исследуемой проблемы, даны обзор литературы и анализ источников, а также методологические основы и хронологические рамки исследования, сформулированы основные цели и задачи диссертации, определены научно-теоретическая и практическая значимость работы.

В первой главе - «Армяно-Азербайджанский, Нагорно-Карабахский конфликт и первые попытки в ее урегулировании» на

основе архивных материалов и источников подробно анализируются причины начало армяно-азербайджанского, нагорно-карабахского конфликта, рассматриваются политическое положение Азербайджана, ошибки руководства республики накануне распада СССР, результатом которого и является этот конфликт, длившийся по сей день. Также рассматриваются первые шаги и усилия международных организаций и крупнейших государств направленные на урегулирование армяно-азербайджанского, нагорно-карабахского конфликта.

Во второй главе - «Место и участие международных организаций в дипломатических переговорах по армяно-азербайджанскому, нагорно-карабахскому конфликту», исследуются правовые аспекты, региональные и международные свойства этого конфликта, процесс трансформации армяно-азербайджанского, нагорно-карабахского конфликта от немеждународного в международный конфликт, также рассматривается внешнеполитический курс общенационального лидера Гейдара Алиева, как стратегия сотрудничества с международными организациями, определяется место и участия международных организаций в дипломатических переговорах по армяно-азербайджанскому, нагорно-карабахскому конфликту.

В третьей главе - «Армяно-Азербайджанская, Нагорно-Карабахская проблема в международных и региональных организациях», на основе источников и значительного фактического материала освещается процесс урегулирования армяно-азербайджанского, нагорно-карабахского конфликта с самыми авторитетными международными организациями, такими как ООН, ОБСЕ, Совет Европы, Европейский Совет, СНГ, Организация Исламской Конференции и др.

В работе также подтверждается, что в течение последних лет процесс урегулирования конфликта политическим путем не принес никакого положительного результата в пользу Азербайджана, так как международное сообщество не оказывает серьезного давления на Армению, чтобы она отказалась от своей агрессивной и деструктивной позиции.

В заключении излагаются полученные результаты исследования.

**S.M.Seyidova**

## Participation of international organizations in the regulation of Armenian - Azerbaijan, Nagorno-Karabakh conflict (1991-2005 years)

### SUMMARY

It is very important for Azerbaijan participation in the International and Regional organizations. So it might be helpful in working out more equitable position in solving Nagorno-Karabakh conflict, the more used that position of these organizations and solving problem of nation's right to Self-Governance, state sovereignty, and territorial integrity is identical with the position of Azerbaijan. With the support of states which are included the international organizations could be influenced to the establishment of steady peace and safety in the region. Impartial settlement of the conflict is possible only in the case of failure of the hostility policy and aggressive actions against Azerbaijan and abandon occupied territory of by Armenian. Establishment of cooperation with the international organizations have a great importance for Azerbaijan. This would facilitate on the one hand the rapid integration of the republic into European and transatlantic security structure and cooperation, on the other hand would increase the participation of the world's states in the settlement of Armenian- Azerbaijan, Nagorno- Karabakh conflict. Due to this search is very actual.

Dissertation is dedicated to the participation of international organizations in the regulation of Armenian - Azerbaijan, Nagorno-Karabakh conflict in 1991-1995. Scientific work consists of introduction, three chapters, conclusions and the list of literature.

In the introduction is based on of the novelty of the investigated problem, given a literature review and analysis of the sources, as well as the basics methodological goals and chronological framework of the study, formulated the foundation aims and objectives of the dissertation are defined scientific- theoretical and practical significance of the work.

In the first chapter “Armenian-Azerbaijan, Nagorno-Karabakh conflict and the first attempt to resolve it” on the basis of archival materials and sources are analyzed in detail the reasons for the start of Armenian-Azerbaijan, Nagorno-Karabakh conflict, examines the political situation in Azerbaijan, mistakes republican leadership on the eve of the collapse of the Soviet Union, which is the result of this conflict, which lasted to the present day. It also discusses the first steps and the efforts of international

organizations and major states, aimed at resolving the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict.

In the second chapter – “The place and the participation of international organizations in diplomatic negotiations on the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict”, examines the legal aspects, regional and international features of this conflict, the process of transformation of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict is not international in international conflict. Also consider foreign policy of Heydar Aliyev, as a strategy of cooperation with international organizations, defines the place and participation in international diplomatic negotiations on the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict.

In the third chapter – “The Armenian-Azerbaijani Nagorno-Karabakh problem in international and regional organizations”, based on sources and substantial factual material highlights the process of settlement of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict, the most authoritative international organizations such as the UN, OSCE, Council Europe, CIS, the Organization of the Islamic Conference and others.

The work also confirms that during recent years the process of political settlement of the conflict doesn't bring any positive result in favor of Azerbaijan, as well as the international community has no serious pressure on Armenia, which would abandon its aggressive and destructive position. In the conclusion was shown the results of scientific search which was obtained.

ADPU-nun mətbəəsi

Kağız formatı 60x84 1/16
Fiziki çap vərəqi 1,9
Tiraj 100

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

---

***На правах рукописи***

**СЕВИНДЖ МАМЕД кызы СЕИДОВА**

# УЧАСТИЕ МЕЖДУНАРОДНЫХ ОРГАНИЗАЦИЙ В УРЕГУЛИРОВАНИИ АРМЯНО-АЗЕРБАЙДЖАНСКОГО, НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА (1991-2005 гг.)

**Специальность: 5503.02 – История Отечества**
**5507.01 – История международных отношений**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание учёной степени**
**доктора наук по истории**

**БАКУ – 2017**